www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 iyun 2017-ci il Çərşənbə № 121 (6735) Qiymәti 60 qәpik

**Xəbər**

## Əməkdar artistin oğlu faciəvi şəkildə öldü

yazısı səh.2-də

**Gündəm**

### Zakir Qaralov casuslardan və xaricdən maliyyələşən QHT-lərdən danışdı



**Baş prokuror:** "İşləmirlərsə, o avtomobilləri necə alırlar?"

yazısı səh.3-də

### Gürcüstan Azərbaycanı 8 gün sonra təbrik etdi - ilginc səbəb

yazısı səh.6-da

### "Neft pulu ilə Azərbaycanı yenidən qurmaq olardı" iddiasına reaksiya

yazısı səh.7-də

### Almaniya "İncirlik" bazasını tərk edir

yazısı səh.9-da

### İcra başçısı qəzada ölən qardaşından danışdı

yazısı səh.12-də

### Vasitəçilər nəyə vəsilə olmaq istəyirlər - sülhə, yoxsa savaşa?..

yazısı səh.11-də

### Quba soyqırım abidəsi üçün komissiya yaradıldı

yazısı səh.4-də

### Bakıda sevgilisi tərəfindən öldürülən qızın ailəsi axtarılır

yazısı səh.12-də

### Dünyadan cənazə namazı qılınmadan köçən "müsəlmanlar"

yazısı səh.15-də

### Ölkədən çıxışına qadağa qoyulan şəxslər kimlərdir?

yazısı səh.12-də

**Ramazan ayının 12-ci günü**

İftar 20.25. İmsak 03.10-dək (QMİ)

12-ci günün duası: "İlahi, məni bu gün günahdan qorunub, iffətli olmaqla zinətləndir! Mənə kifayət edən halal mal ver və qənaət libasını mənə geyindir! Məni belə bir gündə ədalət və insafla yaşamağa müvəffəq et! Məni qorxduğum işlərdən amanda saxla! Ey, qorxanların İsməti və Qoruyanı!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

# ZİYA MƏMMƏDOVLA BÖYÜK HESABLAŞMA - AİLƏ ŞİRKƏTİ ƏLDƏN GEDİR

Sabiq nazirin oğlu ölkədən kənarda yaşasa da, Z.Məmmədova Azərbaycanın hüdudlarından kənara çıxmaq yasaqlanıb; villalar da satışa çıxarılır, Məmmədovların biznes imperiyası sürətlə çökməkdədir....




yazısı səh.3-də

## Ermənistanda panika: "Moskva işğaldakı əraziləri qaytarır..."

Düşmən ölkədə Kremlin gizli Qarabağ planlarından danışmağa başlayıblar; **erməni nəşrindən sensasion iddia:** "Rusiya xüsusi xidmət əməkdaşları Qarabağda əhalini təslimçiliyə hazırlayır..."

yazısı səh.8-də



### Eldar Mahmudovun generalları "8-ci kilometr bazarı" savaşından qalib çıxır

yazısı səh.7-də



*Aida Bağırova:*

### "Qətər böhranından İran qazanacaq"

yazısı səh.9-da



*Siyavuş Novruzov:*

### "Bunun arxasında arvadı erməni olan məmurlar dayanır"

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017



## Metroda gedişhaqqı 30 qəpik olacaq?

**Son günlər metroda gedişhaqqının artırılacağı barədə xəbərlər yenidən gündəmə gəlib. Məlumata görə, gedişhaqqının artırılaraq 30 qəpik müəyyənləşdiriləcəyi deyilir.**

Məsələnin gerçəkliyini öyrənmək üçün "Bakı Metropoliteni" QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayevlə əlaqə saxladıq.

N.Paşayev bildirib ki, bu məsələ hazırda müzakirə edilmir: "Metroda qiymət artımı ilə bağlı Tarif Şurasına müraciət etməmişik. Tarif Şurası belə bir qərar verərsə, o zaman biz bu qərara görə addım atacağıq. Lakin bizim tərəfimizdən Tarif Şurasına qiymət artımı ilə bağlı heç bir təklif və ya tələb olmayıb. Metroda gedişhaqqının qiymətini Tarif Şurası müəyyənləşdirir".

Tarif Şurasının da mövqeyini almağa çalışsaq da, əlaqə yaratmaq mümkün olmadı.

## Antikorrupsiya İdarəsinin rəisi: "Bank sektoru ilə bağlı..."

**"Tərəfimizdən bank işləri ilə bağlı müxtəlif cinayət işlərinin istintaqı aparılır. İbtidai araşdırmalar da gedir". APA-nın məlumatına görə, bunu baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev deyib.**

K. Əliyev bildirib ki, Maliyyə Bazarlarına Nəzarət Palatası və Hesablama Palatası tərəfindən aparılan araşdırmalar Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilir və araşdırılır: "Bank sahəsinin öz qanunları var. Biz bu xətti gözləməliyik ki, bank sektorunun fəaliyyətinə mane olmayaq. Bu, həm də özəl sektora aiddir. Bu araşdırmalar sektorun inkişafına təkan verməlidir. Biz cinayət təqibi vasitələrindən son zərurət kimi istifadə edirik. Yalnız açıq-aydın mənimsəmə faktları olduqda, birbaşa müdaxilə edirik.

Hər pozuntu cinayət deyil. Bank qanunvericiliyinin pozulması, hansısa inzibati pozuntular, səhlənkarlıqlar ola bilər. Ona görə də çalışırıq ki, bu sahədə diqqətli, həssas olaq. Bu məsələdə bank mütəxəssislərinin köməyindən də istifadə edirik. Biz hüquqşünasıq, məsuliyyəti həddindən artıq üzərimizə götürmək də düzgün olmaz".

## Rusiyanın təhsil nazirindən "kirilə qayıdaq" təklifi

**Rusiyanın təhsil və elm naziri Olqa Vasilyeva MDB ölkələrinin kiril əlifbasına qayıtmasını təklif edib.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, nazir bu barədə "Rus dünyası və rus dili: inkişafın tarixi kökləri və istiqamətləri" forumunda çıxışında bildirib.

"Son 10 ildə şriftlərin latın və ərəb əlifbasına keçməsi çox böyük mövzu olub. Biz indi MDB məkanında vahid əlifbaya qayıtmalıyıq. Bu, kiril əlifbasıdır. Sorğular göstərir ki, bizim əhalimiz və yaxın çevrədə yaşayan insanlar onsuz da kiril əlifbasına keçidi vacib sayırlar", - deyə o qeyd edib. O. Vasilyevanın sözlərinə görə, Rusiya kiril əlifbasının yayılması məsələsində mövqeyini qorumalıdır: "Baxmayaraq ki, son iki onillikdə bu mövqe bir az zəifləyib".

Qeyd edək ki, SSRİ-nın süqutundan sonra Azərbaycan, Türkmənistan və Özbəkistan kiril əlifbasından latın əlifbasına keçib. Bir müddət öncə isə Qazaxıstan hakimiyyəti ölkənin 2025-ci ilə kimi tamamilə latın əlifbasına keçəcəyini açıqlayıb.

## Nazirin vəziyyəti düzəlir

**Ürəyində yaranmış problemlə bağlı Türkiyədə müalicə olunan Azərbaycanın energetika naziri Natiq Əliyevin vəziyyəti sabitdir.**

"APA-Economics"in əldə etdiyi məlumata görə, həkimlərin səyi nəticəsində nazirin vəziyyəti stabilləşib, müalicəsi davam etdirilir. Nazir İstanbulun Şişli rayonunda yerləşən və kardioloji xidmətlər üzrə ixtisaslaşan "Florence Nightingale" xəstəxanasında müalicə olunur. Qeyd edək ki, ötən həftənin sonu ürəyində problem yaranan nazir Mərkəzi Neftçilər Xəstəxanasına yerləşdirilib. Daha sonra isə müalicəsini davam etdirmək üçün Türkiyəyə aparılıb.

# İyunun 14-də 195 min 449 şagirdin son zəngi çalınacaq...

**İyunun 14-də 195 min 449 şagirdin son zəngi çalınacaq. Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarı ilə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə edilmiş dəyişikliyə əsasən, ümumtəhsil məktəblərində dərslər sentyabrın 15-də başlayıb iyunun 14-də başa çatır. 2017-ci ildə də ümumtəhsil məktəblərində "Son zəng" tədbirləri iyunun 14-də keçiriləcək.**

Hər il olduğu kimi, bu il də "Son zəng" tədbirləri məktəb rəhbərləri tərəfindən şagirdlərin təhlükəsizliyi təmin olunmaqla bilavasitə ümumtəhsil məktəblərində təşkil ediləcək. Bu il Azərbaycanın ümumtəhsil məktəblərini 195 449 şagird bitirəcək. Təhsil Nazirliyinin məlumatına görə, 2016-2017-ci tədris ilinin sonuna olan proqnoz üzrə respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 110 638 nəfər, XI siniflərini 84 088 nəfər, qiyabi (axşam) ümumtəhsil məktəblərini isə 723 nəfər şagirdin bitirəcəyi gözlənilir. 2017-2018-ci tədris ilinin əvvəlinə 164 945 nəferin I siniflərə qəbulu gözlənilir.

❑ **Günel MANAFLI**





Salam İsmayıl

## Əməkdar artistin oğlu faciəvi şəkildə öldü

**Əməkdar artist, Gəncə Dövlət Teatrının aktyoru Salam İsmayılın oğlu faciəvi şəkildə dünyasını dəyişib.**

Yenicag.az xəbər verir ki, bu barədə aktyorun həmkarı və yaxın dostu, əməkdar artist Novruz Cəfərov xəbər verib: "Oğlunu itirməklə Salamın beli büküldü. Özü də elə faciəli ölümü Allah heç bir ataya göstərməsin. Azər cavan idi, amma səhhətində müəyyən problemlər vardı. Taksi sürücüsü kimi fəaliyyət göstərirdi. İşıqforun qırmızı işığında dayanıb, yaşıl işıq yanıb, maşını yerindən tərpənməyib. Ətrafdakılar siqnal versələr də, xeyri olmayıb. Gəlib baxıblar ki, yazıq keçinib. Ürəyindən idi. İki azyaşlı övladını qoca atasının ümidinə qoyub getdi".

Qeyd edək ki, S.İsmayıl "Yük", "Cavadxan", "Koroğlu" və digər filmlərdə də rol alıb.



## Bakıda isti, rayonlarda yağış...

**İyunun 7-də Bakı və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Cənub küləyi günün ikinci yarısında mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq, axşama doğru arabir güclənəcək. ETSN-dən APA-ya verilən məlumata görə, havanın temperaturunun gecə 16-19° isti, gündüz 26-31° isti, Bakıda gecə 17-19° isti, gündüz 28-30° isti olacağı gözlənilir. Tibbi-meteoroloji proqnoza əsasən, yaxın 2 gündə Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.**

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Səhər bəzi yerlərdə duman olacaq. Lakin axşam və gecə ayrı-ayrı şimal və qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 15-20° isti, gündüz 30-35° isti, dağlarda gecə 9-14° isti, gündüz 17-22° isti olacağı gözlənilir.

## Magistratura imtahanlarının nəticələri açıqlandı

**Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 2017/2018-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına iyunun 4-də keçirilmiş qəbul imtahanının ikinci mərhələsinin nəticələri açıqlanıb.**

İmtahanda iştirak etmiş bakalavrlar DİM-in internet saytında http://eservices.dim.gov.az/netmag2 ttp://eservices.dim.gov.az/netmag2 keçidinə daxil olaraq imtahan nəticələri və cavab kartının qarfik təsviri ilə tanış ola bilərlər.

Bakalavrlar imtahanın nəticələri haqqında məlumatı, həmçinin mobil operatorlar («Azercell», «Bakcell», «Nar») vasitəsilə "iş nömrəsi"ni 7727 nömrəsinə göndərməklə öyrənə bilərlər.

İmtahanda 9503 bakalavr iştirak edib. 19 bakalavr isə imtahana gəlməyib. İki mərhələdə keçirilən imtahanın nəticələrinə əsasən maksimum nəticə 146 bal olub.

Müsabiqə şərtlərini ödəyən bakalavrlar iyunun 9-dan 19-dək internet vasitəsilə ixtisaslaşma seçimini yerinə yetirməlidirlər. Müsabiqəyə yalnız ixtisaslaşma seçimini edib təsdiqləyən bakalavrlar buraxılacaqlar.

## Qalmaqallı qanun payızda müzakirə olunacaq

**"Milli Məclisin deputatının etik davranış qaydaları haqqında" qanun layihəsinin ikinci oxunuşunun parlamentin payız sessiyasında müzakirə ediləcəyi gözlənilir. Parlamentdən modern.az-a verilən məlumata görə, hazırda qanun layihəsinin üzərində iş aparılmır.**

Məlumata görə, qanun layihəsində olan bəzi məqamların yumşaldılmağına ehtiyac yoxdur. Çünki qanun layihəsində göstərilmiş məqamlar konstitusiyada əks olunub. Amma parlament üzvləri tətildən qayıtdıqdan sonra qanun layihəsinə yenidən baxılacaq. Qanun layihəsinin ikinci oxunuşunun müzakirəsi payız sessiyalarının birində olacaq.

Qeyd edək ki, "Milli Məclisin deputatının etik davranış qaydaları haqqında" qanun layihəsi parlamentin mayın 2-də keçirilən iclasında müzakirəyə çıxarılıb və birinci oxunuşda qəbul edilib. Müzakirələr zamanı parlamentin spikeri Oqtay Əsədov və bir neçə deputat qanun layihəsinin bəzi məqamları ilə razılaşmadıqlarını bildiriblər.

## Türkiyə millisi Arda Turansız qaldı

**Türkiyə millisinin baş məşqçisi Fatih Terim komandanın futbolçusu Arda Turanı millinin düşərgəsindən kənarlaşdırıb. Modern.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, buna Ardanın təyyarədə "Milliyet" qəzetinin idman yazarı Bilal Meşeni ağır formada təhqir etməsi səbəb olub.**

Baş verənlərdən sonra Türkiyə Futbol Federasiyası prezident Yıldırım Demirörən, federasiya rəsmisi Əli Dürüst və Fatih Terimin iştirakı ilə iclas keçirib. İclasdan sonra F.Terim Arda ilə görüşüb. Görüşdən sonra F.Terim A.Turanın millinin düşərgəsindən göndərmək qərarı verildiyini deyib.

## AXCP üzvünə 7 il cəza tələbi

**AXCP üzvü Fuad Əhmədlinin cinayət işi üzrə məhkəmə iclası davam edib. ttp://lent.az/ Lent.az-ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fikrət Qəribovun sədrliyi ilə keçirilən prosesdə məhkəmə istintaqı başa çatıb. Söz dövlət ittihamçısına verilib. Prokuror çıxışında Fuad Əhmədlinin 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.**

Vəkil Əsabəli Mustafayev isə çıxışa hazırlaşmaq üçün məhkəmədən vaxt istəyib.

Proses iyunun 16-da davam edəcək.

Qeyd edək ki, Fuad Əhmədli 2016-cı il avqustun 18-də saxlanılıb. Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokurorluq bildirib ki, Fuad Əhmədli "Azərfon" MMC-də çalışdığı müddətdə abonentlərin şəxsi məlumatlarını üçüncü şəxsə ötürüb. Həmçinin bildirilib ki, Fuad Əhmədlinin mənzilində axtarış zamanı türkiyəli din xadimi Fətullah Gülənin çıxışlarının olduğu kitablar, CD-disklər tapılıb.

Fuad Əhmədli Cinayət Məcəlləsinin 302 (əməliyyat-axtarış fəaliyyəti üzrə qanunvericiliyi pozma) və 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə ittiham edilir.

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017




# Ziya Məmmədovla böyük hesablaşma - ailə şirkəti əldən gedir

**Sabiq nazirin oğlu ölkədən kənarda yaşasa da, Z.Məmmədova Azərbaycanın hüdudlarından kənara çıxmaq yasaqlanıb; villalar da satışa çıxarılır, Məmmədovların biznes imperiyası sürətlə çökməkdədir....**

**Fevral ayının 13-də prezident İlham Əliyevin sərəncamı ilə ləğv edilən Nəqliyyat Nazirliyinin sabiq rəhbəri Ziya Məmmədovun və ailəsinin biznesinin tezliklə çökəcəyi barədə məlumatlar təsdiqlənir. Məlumata görə, Z.Məmmədov hakimiyyətə qarşı "qeyri- səmimi" mövqeyinə görə cəzalandırıldıqdan sonra ölkə iqtisadiyyatında ağırlıq təşkil edən biznes strukturlarımı təhvil verməyə razılaşıb. Hətta iddia olunur ki, oğlu Anar Məmmədov ölkədən kənarda yaşasa da, Z.Məmmədova Azərbaycan hüdudlarından kənara çıxmaq yasaqlanıb. Görünür, bu yasaqda məqsəd Məmmədovları tamamilə iqtisadi sferadan kənarlaşdırmaqdır.**

Çünki keçmiş nazirin ailəsi uzun illər hüdudsuz səlahiyyətləri nəticəsində ölkə iqtisadiyyatının neft daşımaçılığından tutmuş "fast-fud" fəaliyyətinədək, böyük bir spektrində hökmranlıq edə biliblər. 2005-ci ildən 2013-cu ilə qədər "ZQAN Holdinq" adı ilə fəaliyyət göstərən Məmmədovların biznes imperiyası "Garant-Holdinğ"ə çevriləndən sonra da təsir imkanlarını daha da artırdı.

"Garant Holdinq"in tərkibinə 17 yerli şirkət daxildir. Bunlar "Qarant Sığorta" ASC, "Azbentonit" MMC, "Royal İsteyt" MMC, "Qarant Tour" MMC , "English Yard" MMC, "Quba Olimpiya Kompleksi" MMC, "Avto-Media" MMC, "Ucar Aqro" MMC, "M.Trans" MMC, "Ameritex" MMC, "Transevrokom" MMC, " Zqan konstrakşn" MMC, "Turbo.az" MMC, "Qarant Sığorta Agenti" MMC, "Quba Resort" MMC, "AFK" MMC, "Delfin" MMC və "Goranboy Gips" ASC-dir...

Holdinqə daxil olan şirkətlər istehsal, tikinti, logistika, hotel və daşınmaz əmlak, kənd təsərrüfatı və sair sahələrdə fəaliyyət göstərirdi. Hələ Z.Məmmədov nazir olanda bu şirkətlərdən fəaliyyətini dayandıranlar var idi *(məsələn, "Qarant Sığorta")*. Amma bu, Məmmədovlar imperiyası üçün "dənizdən bir damla" hesab olunurdu.

İndi isə ailə biznes imperiyası sürətlə çökməkdədir və belə görünür ki, şirkət tam iflas olduğunu açıqlayanadək bu proses davam edəcək. Məlumata görə, Məmmədovların şimal bölgəsində olan bizneslərinin təhvil-təslimi başlayıb. Xüsusilə Qubada "Garant Holding"in fəaliyyəti tam sıxışdırılıb. İş orasındadır ki, Məmmədovların ölkənin səfalı yerlərində böyük villaları da var ki, indi onları satmaq problemə çevrilib. Məmmədovlar isə Azərbaycandakı bütün əmlaklarını - hotellərdən tutmuş restoranlaradək, satmaq niyyətindədirlər. Aydındır ki, bir müddət hakimiyyətdən hətta kiçik də olsa vəzifə gözləyən Z.Məmmədov Azərbaycanda bizneslərinin davam etdirilməsinin mümkünsüzlüyünü artıq anlayıb.

Bugünlərdə "Garant Holding"in bir hissəsini təşkil edən, ən iri quş əti istehsalçılarından olan "Ucar Aqro"nu itirən Məmmədovlar daha bir "xırda" bizneslərindən əllərini çəkiblər.

"Garant Holding"in nəzarətində olan KFC restoranlarının mülkiyyətçisi rəsmən dəyişib. Virtualaz. org xatırladır ki, məşhur KFC "fast-fud" restoranlarını Azərbaycana 2010-cu ildə başqa bir iş adamı, «PNN Group» şirkətinin vitse-prezidenti Nəsib Piriyev gətirmişdi. O, «AFK» MMC-ni qurdu, Bakıda bir- birinin ardınca 3 restoran açdı, şirkətin kapitalını 5,6 milyon manata çatdırdı. Sonradan şirkət Anar Məmmədova ötürüldü.

Şəbəkə "Garant Holding"ə keçəndən sonra sayca dördüncü KFC restoranı o zaman Nəqliyyat Nazirliyinin tabeliyində olan "Azərbaycan Dəmir Yolları" QSC-yə məxsus olan, "28 May" metro stansiyası yaxınlığında yerləşən tarixi binada açılmışdı. Ötən ay həmin restoran "başqa ünvana köçmək" adı ilə bağlanıb.

"Garant Holdinğ" şirkətinin rəsmi web saytı sonuncu dəfə 2014-cü ilin oktyabrında yenilənib. "Garant Holding"in ofisi isə bağlıdır, şirkətin telefonları söndürülüb. Belə görünür ki, Məmmədovlarla böyük hesablaşma hələ qarşıdadır. Uduzan tərəfin kimliyi isə indidən məlumdur...

❑ **"YM"**

# İmkan verin, məmurlar vəzifədən getsinlər



**Aysel ƏLİZADƏ**

**Bir adam vəzifədən gedə bilmir. Bütün ölkə "onu vurdular" deyir. Bizə elə gəlir ki, adam ömrünün sonunacan vəzifədə qalmalıdı. Buna görə nə kimisə vəzifədən çıxara bilirlər, nə kimsə öz xoşu ilə gedir.**

Vəzifədən gedəni saygıyla yola salmağı, gələni saygı ilə qarşılamağı da öyrənək gərək. Eyni yerə ayaq döymək, eyni yerdə işləmək həyat tərzidi burda.

Vəzifədən getmək də bir mədəniyyətdir. Başqalarına yol açırsan. Öz həyatını dəyişirsən. Yükünü azaldırsan. Cəmiyyətə "özünüzə başqa qulluqçu tapın, məndən bu qədər" deyirsən. Kimliyə yox, kürsüyə hörmət qoyulanda adamlar görəvlərini itirmək istəmirlər. Buna görə də hər kəs yerinə mıxlanıb qalır. Əminəm ki, vəzifədə olanların içində işdən getmək istəyən çoxdu. Bacardığını edib, indi də rahat yaşamaq istəyir.

Biz dəyişiklikdən qorxan cəmiyyətik. Bugünlərdə gənc bir xanım dedi ki, eyni evdə uzun müddət yaşaya bilmirəm. Bağrım yarılır. Ortamı dəyişməyə ehtiyac duyuram. Hər gün eyni marketə girmək, eyni məhəllədən keçmək, eyni qapını açmaq, eyni mənzərəni görmək ürəyimi sıxır. Gəncliyim eyni yerdə dövrə vurmaqla keçir.

Ömür bitməz zaman deyil, onu bir nöqtədə qocalaraq yola verəsən. Geyim tərzini belə dəyişəndə yeni enerji ilə dolur insan. Hamımızı depressiyaya salan monotonluqdu. Dünya insanı buna görə yaşlı, cavan vaxtında səyahət edir. Hamımız həqiqət axtarırıq. Bir gün ölkə boyu səfərə çıxdım.

Maşınla bir çöllüyün yanından keçirdik. İti də ulamayan, qonşu evlər belə gözə dəyməyən o yerdə tənha bir daxma vardı. Həmin an həqiqəti tapdım, deyəsən. Hər şeydən uzaq çöllükdə doğulub, yaşayıb, dünyanı görmədən ölüb getmək də həyatdısa, yaradılışın fəlsəfəsi nədi? Dünyanı, həyatı məhz o nöqtədə hiss edərək iddiasız, səs-küysüz, yoxsa həyatın qarmaşasına, həşirinə qoşulub "daha nələr var" marağı ilə yaşamaq?..

Mənə görə həyat Yer üzünü gəzib görməklə mənalanır. Biz bu dünyanın gözəlliklərini görmək üçün doğuluruq. Fərqli duyğular yaşamaqdı həyatı anlamlı edən.

Eyni nöqtədə kök atıb yaşamaq, planet boyu təbiətin gözəlliyini görmədən ölmək həyatı anlamsız edir. Mənim üçün eyni daxmada sivilizasiyadan uzaq yaşayan adamla eyni vəzifədə 40 il oturan adamın həyatı arasında önəmli fərq yoxdu. Çünki hər ikisində başqa halların, fərqli duyğuların, yaşantıların dadını bilmirsən.

Hər kəsin dəyişməz olduğu cəmiyyətdə tərpənmək mümkün deyil. Tərpənəndə bütün yolları bağlayan qaya kimi tərpənməz adamlara dəyib yerinə qayıtmalı, öz həyatında özünü qutunun içindəki kimi hiss etməli olursan. Buna görə hamımız boğuluruq. Qutudayıq.

İnkişaf üçün hər kəsin öz yerini dəyişməsi gərəkdi. Özümüz, uşaqlarımız, sabahımız üçün yerimizi başqasına verməkdən qorxmalı deyilik. Heç nəyin dəyişmədiyini görəndə övladlarımız ümidsizləşirlər. Arzuları var, böyüyüb uğur qazanmaq, hansısa yerlərəcən qalxmaq istəyirlər. İllərlə eyni yerlərdə eyni adamları görüb ruhdan düşə bilərlər. Böyük arzulardan vaz keçərlər. Ən böyük arzuları vətəni tərk etmək olar. Biz isə elə etməliyik ki, uşaqlarımız vətəndən kənara yalnız dünyanı görmək, ölkəmizi təmsil etmək üçün getmək istəsinlər. Yetkin, tox, dünyagörüşlü, anlamlı həyatı olan insana çevrilsinlər. Azərbaycanın adı dünyanın dörd bir yanında saygıyla anılsın.

# Zakir Qaralov casuslardan və xaricdən maliyyələşən QHT-lərdən danışdı

## Baş prokuror: "İşləmirlərsə, o avtomobilləri necə alırlar?"

**Bu casus şəbəkəsinin, cinayətkar qrupun ifşasında Müdafiə Nazirliyinin rolu böyükdür". APA-nın məlumatına görə, bunu dünən baş prokuror Zakir Qaralov bildirib.**

Baş prokuror deyib ki, bu cinayət işinin ətrafında Azərbaycan ordusuna ləkə vurmaq istəyən qüvvələr, bəzi KİV-lər həqiqətə uyğun olmayan, dövlət təhlükəsizliyimizə xələl gətirən məlumatlar, məqalələr dərc etməkdədir: "Artıq 6 KİV-ə Baş Prokurorluq tərəfindən rəsmi xəbərdarlıq edilib. Bütün KİV-i bu məlumatları işıqlandırmaqdan çəkinməyə çağırıram. Azərbaycan müharibə şəraitindədir, heç kəsin ixtiyarı yoxdur ki, Azərbaycan ordusuna, onun hərbi qüdrətinə, qeyrətli övladlarımıza ləkə vursun. İstənilən hallar mövcud ola bilər, ancaq dövlətin qurumları bunun qarşısını alıb. Dövlətimizin hərbi qüdrəti üçün bu gün hər hansı təhlükə yoxdur".

Baş prokuror hesab edir ki, müxalif siyasi partiyalar və bir sıra qeyri-hökumət təşkilatları (QHT) maliyyə şəffaflığı tələblərini pozur. Virtualaz.org-un məlumatına görə, baş prokuror jurnalistlərə bu barədə belə deyib: "Özünü müxalifət adlandıran, heç bir hüquqi qeydiyyatdan keçməyən QHT-lər, siyasi partiyalar aldığı qrantlar barədə məlumat vermirlər. Biz də məcbur olduq ki, bir sıra tədbirlər görək. Bu sahədə Azərbaycanda qanunvericilik təkmilləşdirilib. Onlar hər hansı qeyri-qanuni yolla Azərbaycanda həmin pulları ala bilmirlər. Ona görə də digər ölkələrdə hesablar açmaqla bunu həyata keçirirlər. Bu da qanunsuzdur".

**O bildirib ki, bu halların qarşısı tam ciddiliklə alınıb:** "Gələcəkdə də bu halların qarşısı alınacaq. Həmin yoldaşlara sual olunur, onlar on illərlə hər hansı bir qurumda işləməyərək cangüdənləri necə saxlayır, müxtəlif avtomobilləri hansı pulla alırlar, xaricə səfərləri nəyin hesabına edirlər? Həmin qüvvələr maliyyə hesabatları vermirlər.

... Bəziləri qanundan danışırlar, amma özləri bu cür qanunsuz qrant korrupsiyasına qoşulublar. Onlar bilməlidirlər ki, son dövrlərdə baş verən hadisələr, aşkar edilən vəsaitlərin mənbələri bizim tərəfimizdən müəyyən ediləcək. Hesab edirəm ki, artıq bu qurumların tam gənş şəkildə maliyyə mənbələrinin ciddiliklə yoxlanılmasını təmin etməyin vaxtı çatıb".



**Z. Qaralov qeyd edib ki, korrupsiya hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır:** "Azərbaycan beynəlxalq və regional səviyyədə bütün konvensiyalara qoşulub, bu sahədə qanunvericilik təkmilləşdirilib, işlək mexanizm yaradılıb. Bu sahədə 3 milli fəaliyyət planının icrası başa çatdırılıb. Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya və Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə İdarəsi bu sahədə uğurla fəaliyyət göstərir. Korrupsiyaya qarşı mübarizədə "ASAN xidmət"in rolunu xüsusi vurğulamaq istəyirəm, burada fəaliyyət korrupsiyanı tam istisna edir. "ASAN xidmət" beynəlxalq səviyyədə digər ölkələrə tövsiyə edilməkdədir. Bu gün tam əminliklə demək olar ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizədə səmərəli mexanizm mövcuddur".

**Uzun müddətdir ki, ölkədə müxalifətin varlığı hiss olunmur. İqtidar tərəfindən hansı addımın atılmasından asılı olmayaraq, müxalifət yalnız susqunluq nümayiş etdirir. Elə ictimaiyyətdə də müxalifətin fəaliyyətinə qarşı biganəlik açıq-aşkar hiss olunur.**

# Müxalifət liderləri nə edir?

## Qısa araşdırmamızın düşündürən nəticələri...




Bunu sosial şəbəkələrdən, həmçinin mediada müxalifətlə bağlı olan xəbərlərin oxunma sayından da görmək mümkündür. Belə ki, insanlar müxalifət cameəsinin ən öndə olan liderinin belə açıqlamalarına bir o qədər də maraq göstərmir, müxalifətin hər hansı bir fəaliyyəti, mitinqlə bağlı xəbərlərə çox zəif reaksiya verirlər.

Bəs müxalifət liderləri bu gün nə işlə məşğuldurlar?

İlk olaraq onu qeyd edək ki, son illər müxalifət liderləri öz fəaliyyətlərini daha çox sosial media üzərində qurublar. Onlar sosial şəbəkələrdəki şəxsi səhifələrində hər hansı bir məsələyə münasibət bildirib, bəyanatlar yayırlar. Real həyatda isə müxalifət liderlərini daha çox hansısa tanınmış şəxsin yas mərasimində və ya məhkəmələrdə görmək mümkündür.

**Məsələn, Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbərin sosial şəbəkədə son paylaşdığı məlumat Qiyas İbrahimovla bağlıdır. İ. Qəmbər bildirib ki, məhbusun apelyasiya məhkəməsində iştirak edib:** "Qiyas kimi işıqlı gənclərimizi zindan və qandalda görmək çox ağır, amma məğrur və mübariz görmək çox qürurvericidir".

Müsavat Partiyasının başqanı Arif Hacılı isə bastainfo saytına haker hücumu olması barəsində məlumat paylaşıb. A. Hacılı bildirib ki, hakimiyyət azad sözün təpkisinə duruş gətirə bilmir.

AXCP lideri Əli Kərimlinin fəaliyyəti demək olar ki, tamamilə sosial şəbəkə üzərindədir. O, hər gün ölkədə və xaricdə baş verən hadisələrə sosial şəbəkədə münasibətini yazmaqla reaksiya verir.

ADP sədri Sərdar Cəlaloğlunun sosial şəbəkədə hesabı olmasa da, onun boş zamanlarında daha çox elmi fəaliyyətlə məşğul olması kimsəyə sirr deyil. Hətta bir müddət öncə Sərdar Cəlaloğlunun "Kosmik hadisələr haqqında nəzəriyyə"sinin Nobel Sülh Mükafatına layiq görülə biləcəyi ilə bağlı mətbuatda xəbərlər də dolaşırdı.

VİP sədri Əli Əliyev partiyasının qurultayından sonra partiyadaxili işlərlə məşğuldur. Partiya sədri hesab edir ki, ilin ikinci yarısında ölkədə prezident seçkiləri keçiriləcək. Elə əsas hazırlıqları da bununla bağlıdır. Əli Əliyev sosial şəbəkədə əsasən xaricdə və ölkədə baş verən siyasi hadisələrə münasibət də bildirir.

KXCP sədri Mirmahmud Mirəlioğlunun isə nizamnamələrinə uyğun olaraq partiyadaxili işlərlə məşğul olduğunu öyrəndik.

Ümid Partiyasının sədri İqbal Ağazadənin də sosial şəbəkədəki səhifəsi xeyli aktivdir. Səhifədə əsasən İ. Ağazadənin Milli Məclisdəki çıxışları, qaldırdığı problemlər paylaşılır ki, bu da insanlar tərəfindən maraqla qarşılanır. Məlumata görə, Ümid Partiyası növbəti ildə qurultay keçirməyi planlaşdırır. Buna görə də yay boyunca partiyanın rayon təşkilatlarının konfransları keçiriləcək.

Yeni yaranan AG Partiyanın lideri Tural Abbaslı da sosial şəbəkədə passiv sayılmaz. T. Abbaslı sosial şəbəkədə daha çox ölkədəki problemlər barəsində fikirlərini bölüşür. Məlumata görə, partiya hələ ki təşkilatlanma prosesində olduğu üçün Tural Abbaslı da daha çox bu işlə məşğuldur.

Onu da qeyd edək ki, ölkədə keçirilən müxtəlif anım tədbirlərinə müxalifət partiyalarının bəziləri birlikdə gedirlər. Ancaq bəzi partiyaları anım tədbirləri belə birləşdirə bilmir. Onlar bu kimi tədbirlərə belə partiya olaraq tək qatılmağa üstünlük verirlər.

❑ **Əli RAİS**



# Quba soyqırım abidəsi üçün komissiya yaradıldı

## Komissiyaya prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov rəhbərlik edəcək

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev "Quba şəhərində "Soyqırım memorial kompleksi" ilə bağlı bəzi məsələlər haqqında" sərəncam imzalayıb.**

Sənədə əsasən, kompleksin mövcud vəziyyətinin araşdırılması və görüləcək işlər barədə müvafiq təkliflərin hazırlanması üçün komissiya yaradılıb. Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənov komissiyanın sədri təyin edilib. Komissiyanın tərkibinə, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli, Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov, Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycan Respublikasının mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev, Azərbaycan Respublikasının ədliyyə nazirinin müavini Toğrul Musayev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsi müdirinin müavini Seymur Fətəliyev, Quba Rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni daxildirlər.

Komissiya araşdırmanın nəticələri və görüləcək işlər barədə təkliflərini bir ay müddətində Azərbaycan Prezidenti Administrasiyasına təqdim etməlidir.

# Rusiya NATO-ya üzv olsaydı...

## Politoloq: "Şimal qonşumuz rəsmən Avropanın bir parçası olsaydı, Rusiya nə Gürcüstanı, nə də Ukraynanı parçalayardı"

**"Rusiyanın NATO-ya üzv olması istəyi ilk dəfə deyil səslənir. Bu fikri ilk dəfə Rusiya liberallarının lideri Vladimir Jirinovski səsləndirib. Baxmayaraq ki, o, qatı antiqərbçidir, bu qeyri-adi təklifi irəli sürmüşdü. Daha sonra bəlli olur ki, bu təklifi Rusiya prezidenti Vladimir Putin də dilə gətirib".**



"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bu fikirləri "Yeni Müsavat"a açıqlamasında bildirdi. Qeyd edək ki, Rusiya prezidenti Vladimir Putin "Politiko" nəşrinə açıqlamasında amerikalı həmkarı Bill Klintonla görüşü zamanı Rusiyanın NATO-ya daxil olması təklifini irəli sürdüyünü və bu durumun ittifaq ölkələri tərəfindən birmənalı qarşılanmadığını bildirmişdi. Rusiyanın keçmiş xarici işlər nazirinin müavini Sergey Orcanikidze isə deyib ki, Putin o zaman Rusiyanın NATO-ya daxil olmaq təklifini irəli sürməklə, ittifaq ölkələrinin aqressiyasını yoxlamaq istədi, (axar.az ttp://axar.az/). "Mən o zaman NATO ilə məşğul deyildim. Amma düşünürəm ki, bu, həqiqətən də reallaşa bilərdi. 1949-cu ilə NATO yaradılanda SSRİ alyansa qoşulmaq istədiyini bildirmişdi. O zaman isə "Xeyr, heç vaxt" cavabı verilmişdi", - diplomat bildirib.

**E.Şahinoğlunun sözlərinə görə, böyük ehtimalla Putin hakimiyyətinin ilk ilində bu təklifi dilə gətirib:** "Çünki Putinin öz sözlərinə görə, o, Rusiyanın NATO-ya üzv olmaq istəyini Amerika prezidenti Bill Klintona bildirib. Klintonun prezidentlik müddəti 2001-ci ildə bitib. İlk baxışdan məntiqi təklifdir. SSRİ dağıldıqdan sonra Varşava müqaviləsi dağıldı və bircə NATO qaldı. Varşava müqaviləsinin Şərqi Avropadakı üzvləri NATO-ya üzv oldular, hətta keçmiş SSRİ respublikaları olan Baltik ölkələri də Şimali Atlantika Blokunun üzvlüyünə qəbul olundular. Bundan sonra NATO Rusiya ilə üz-üzə qaldı. O zaman Rusiyanın xarici işlər naziri Yevgeniy Primakov deyirdi ki, NATO-nun rəqibi SSRİ idi, o da yoxdur, ona görə də Şimali Atlantika blokunun varlığına da bundan sonra ehtiyac yoxdur". **Ancaq ekspert xatırlatdı ki, o zaman NATO rəhbərliyi fərqli düşünürdü:** "Məncə, elə 1990-cı illərdə Rusiyanı həm Avropa İttifaqına, həm də NATO-ya üzv qəbul etmək lazım idi. Doğrudur, bu ideya indi fantastik səslənir, ancaq şimal qonşumuz rəsmən Avropanın bir parçası olsaydı, Rusiya nə Gürcüstanı, nə də Ukraynanı parçalayardı, Avropanın oyun qaydaları buna imkan verməzdi. İndi isə artıq gecdir".

**Politoloq Elçin Mirzəbəyli isə hesab edir ki, o zaman nə SSRİ-nin, nə də Rusiyanın NATO-ya üzv olması mümkün deyildi:** "Bütün bunlar ənənəvi rus avantürasından başqa bir şey deyil. Avropa sosializm kabusunu Rusiyaya ixrac etməklə bu ölkənin jandarm funksiyasını yerinə yetirməsindən zorla xilas olmuşdu. Rusiyanın və SSRİ-nin Avropada ittifaqda ola biləcəyi yeganə dövlət Almaniya idi. 1939-cu ildə SSRİ ilə Hitler Almaniyası arasında 3 müqavilə imzalanmışdı. Bunlardan ən məşhuru Molotov-Ribbentrop paktı idi. 1939-cu ilin sentyabrında imzalanan müqavilə nəticəsində isə Polşa SSRİ və Almaniya arasında bölünmüşdü. Hitlerin hücumu iki ölkə arasında müttəfiqlik imkanını da aradan qaldırdı. Ruslar da ərəblər kimi nağıl danışmağı sevirlər. SSRİ-yə heç vaxt NATO-ya üzvlüklə bağlı təklif olmayıb, olması mümkün də deyildi. Çünki NATO məhz SSRİ-yə qarşı yaranmışdı. SSRİ isə özünü dünyanın xilaskarı və sahibi kimi görürdü". **E.Mirzəbəylinin qənaətincə, Putinin NATO ilə bağlı söylədikləri Rusiya-NATO əməkdaşlıq şurasının ömrünün uzadılmasına və Moskvanın öz iddialarını ortaya qoymaq üçün vaxt qazanmasına xidmət edirdi:** "İnsafən, Rusiya müəyyən zaman kəsiyində bunu bacardı. Amma indi vəziyyət dəyişib. NATO ölkələri Rusiyanın təcavüzünün qarşısını almaq üçün alyansın büdcəsinə 2017-ci il üçün əlavə olaraq 370 milyard dollar əlavə ediblər. Zənnimcə, bu rəqəm Rusiyanı qarşıda nələrin gözləyə biləcəyini ortaya qoyur".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017

# “Bunun arxasında arvadı erməni olan məmurlar dayanır”

## Siyavuş Novruzov: “Struktur islahatları davam etdiriləcək”

**BAXCP sədri, deputat Qüdrət Həsənquliyev son müsahibələrindən birində deyib ki, bu gün Azərbaycana ən böyük təhlükə Rusiyadan gəlir. Onun fikrincə, bu təhlükənin qarşısının alınması üçün Azərbaycanda Rusiyanın diktəsi ilə hərəkət edən kim varsa, zərərsizləşdirilməlidir.**

*Deputat qeyd edib ki, onların siyasi və maliyyə imkanları minimuma endirilməlidir ki, bu insanlar ölkədə pozuculuq fəaliyyətinə yol verə bilməsinlər. Kifayət qədər ciddi ittiham və çağırışdır. Şübhəsiz ki, özü hüquqşünas olan Q.Həsənquliyev əlində hansısa məlumatlar olmasa, belə çağırışda bulanmazdı. Seçki ili ərəfəsində hansısa təzyiq rıçaqlarının işə salınacağına onsuz da şübhələrin olmadığı bir məqamda səslənən bu fikirlər yəqin ki, hakim partiyanın da diqqətini çəkir. YAP icra katibinin müavini, deputat Siyavuş Novruzovla digər aktual mövzuları da əhatə edən söhbətimizdə əvvəlcə bu məsələyə münasibət öyrəndik.*

***- Siyavuş bəy, deputat həmkarınız Qüdrət Həsənquliyevin Rusiya təhlükəsi ilə bağlı dediklərinə münasibətiniz necədir? Partiyada bu mövzuda müzakirələr aparılırmı?***

- Qeyd etmək istərdim ki, “beşinci kolon” - hansı dövlətin olur-olsun - çox təhlükəli bir məsələdir. İstər dövlət strukturunda, istər orduda, istərsə, ictimai-siyasi həyatda olsun. Adətən siyasi partiyalarda, QHT-lərdə, mətbuat orqanlarında da olur. Yəni həddindən artıq təhlükəli bir məsələdir. Biz də eyni məkandan çıxmışıq. Bir sovet məkanı var ki, hələ də keçmiş əlaqələr, ilişkilər qalmaqda davam edir. Mən hesab edirəm ki, indi burada tək Rusiyanı nəzərdə tutmaq olmaz. Ümumiyyətlə, Azərbaycanda marağı olan dövlətlər çalışırlar ki, burada hər hansı şəkildə, dolayısı ilə öz maraqlarını gizli və ya aşkar şəkildə müdafiə edən qurum, təşkilat, struktur, şəxs, məmur və s. olsun. Bu, qaçılmazdır, müasir dünyanın reallığıdır. Biz tarixə nəzər salsaq, görərik ki, vaxtilə Hindistandan başlamış, bu tərəfə bu məsələlər həmişə onların daxilində olub. Yəni ingilismeyllilik, yaxud sonradan bəzi ölkələrdə amerikameyllilik, digərlərində avropameyllilik hökm sürüb. O cümlədən postsovet məkanında da bu məsələlər öz əksini tapıb. Sovet birliyi dağıldıqdan sonra Rusiya onun varisi kimi çıxış edir. Bu gün də biz dünyada baş verən hadisələrə nəzər salanda görürük ki, hər bir ölkə onun digər ölkələrdə müdafiəçilərinin olmasını istəyir. O baxımdan bu, günümüzün reallığıdır. Amma buna qarşı dövlətlər ciddi şəkildə mübarizə aparmalıdır. Çünki dediyim kimi, bu, çox təhlükəli bir məsələdir.

***- Bundan əvvəl Qüdrət Həsənquliyev Rusiyanın hərbi təhsil müəssisələrini bitirmiş, Rusiya silahlı qüvvələrində xidmətdə olmuş və hazırda Azərbaycanın Silahlı Qüvvələrində xidmət edən şəxslər barədə ciddi araşdırmaların aparılması barədə çağırış etmişdi...***

- Xüsusilə Ermənistanla müharibə aparan Azərbaycan üçün bu, çox ciddi bir məsələdir. Təbii ki, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsinin üzvüdür, vahid Gömrük İttifaqına qoşulub, Rusiyanın ən yaxın müttəfiqi, forpostudur. Bu mənada ordunun tərkibində belə insanlar mövcuddursa, bu, aşkarlanmalıdır. Çünki həm ordunun özündə, həm digər rəsmi təhlükəsizlik nəzarət idarələri fəaliyyət göstərir ki, bunlar da bu cür şəxslərin aşkarlanıb üzə çıxarılması və onların verəcəyi ziyanların qarşısının alınması üçündür. Hesab edirəm ki, bu gün onların funksiyası daha geniş olmalıdır. Digər tərəfdən, bizi əhatə edən başqa dövlətlər də var ki, onların da bu və ya digər şəkildə Azərbaycanda maraqları var, ayrı-ayrı strukturlarda özlərinin şəbəkələrini yaratmağa çalışırlar, yaxud da artıq yaradıblar.

***- Hesab olunur ki, 2018-ci il prezident seçkiləri ərəfəsində təzyiqlər daha da artacaq. Azərbaycan hakimiyyəti belə təhlükəli şəxslərin zərərsizləşdirilməsini hansı şəkildə həyata keçirə bilər? Müəyyən strukturlardakı təmizləmələr necə həyata keçirilməlidir?***

- Burada əsas məsələ kimi Ümumrusiya Azərbaycan Konqresinin qeydiyyata alınmaması məsələsi qoyulub. Yəni burada obyektiv və subyektiv səbəblər var. Rusiyada müəyyən qüvvələr var ki, Azərbaycan-Rusiya münasibətlərinin korlanmasına cəhd göstərir və addımlar atır. Təbii ki, bunun arxasında erməni lobbisi, ermənilərlə əlbir olanlar, arvadı, anası erməni olan məmurlar dayanır. Bu gün Azərbaycanda da özünü “azərbaycanlı” adlandıran insanlar var ki, münasibətlərin korlanmasına cəhd göstərirlər. Azərbaycan müstəqil siyasət yeridən bir ölkədir və Azərbaycanda cənab prezidentin apardığı siyasət sırf Azərbaycan xalqının maraqlarının müdafiəsi ilə bağlıdır. Ona görə də belə hallar baş verdikdə, onu dövlətlərarası deyil, hər hansı qurumlar və yaxud fərdlər arasında baş verən hadisə kimi qiymətləndirmək lazımdır. Həmçinin buna maneçilik törədən, yaxud münasibətlərin korlanmasına xidmət göstərən şəxslər üzə çıxarılmalı - istər dövlət məmuru, istər hərbçi, istər təhlükəsizlik strukturunun nümayəndəsi, istər Milli Məclisin deputatı olsun, yaxud QHT, siyasi partiya üzvü olsun - ifşa olunmalı və qanunun tələbinə uyğun şəkildə cəzalandırılmalıdır. Təbii ki, hər tərəfdən münasibətləri korlamağa cəhd göstərən qüvvələr var. Bilirsiniz ki, Azərbaycan heç bir koalisiyada iştirak etmir, müstəqil siyasət yürüdür və bloklara qoşulmur, hər bir dövlətlə də bərabərhüquqlu şəkildə münasibətlər qurur. O baxımdan da bunu gözü götürməyən dövlətlər var və istəyirlər ki, Azərbaycan onların diktəsi ilə otursun-dursun, yaxud da hansı tapşırıq verilsə, yerinə yetirsin. Təbii ki, bu da Azərbaycan üçün məqbul deyil. İkinci tərəfdə Azərbaycanın kifayət qədər təbii sərvətləri var, bu sərvətlərin daşınmasının yolları var. Bir dövlət bunu istəyir, digəri istəmir. Biri deyir bu ərazidən keçməlidir, başqa biri deyir, yox, bu ərazidən keçməlidir. Azərbaycan üçün hansı sərfəlidirsə, məhz ona üstünlük verir. Düşünmür ki, bu ərazidən keçsə, filan dövlətin xoşuna gələcək. O baxımdan, təpkilər olacaq. Seçkilər ərəfəsində də bu, xüsusi əhəmiyyət kəsb edir. Çünki gərgin ictimai-siyasi dövr olur. Bu baxımdan da həmin gərgin ictimai-siyasi vəziyyət ərəfəsində hər bir dövlət çalışır ki, özünün vacibliyini və özünün təsir mexanizminin necə həyata keçirilməsini göstərsin.



### “Nazirlər Kabineti əgər ləğv olunacaqsa...”

***- Prezident Administrasiyasındakı struktur islahatları, prezident sərəncamları ilə yeni təyinatların olması barədə yanaşmalardan biri budur ki, 2018-ci il prezident seçkilərinə hazırlıq prosesi başlayıb. Belə yanaşmalar barədə nə deyə bilərsiniz?***

- Ümumilikdə biz keçən il Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendumun keçirilməsi haqqında qərar verəndə bu məsələlərin bir hissəsi insan hüquq və azadlıqlarına, digər hissəsi isə Azərbaycanda dövlət strukturunun təkmilləşdirilməsinə aid idi. Odur ki, dövlət strukturunun təkmilləşdirilməsinə ehtiyac var idi. Onu da deyim ki, struktur islahatları davam etdiriləcək, tək administrasiya ilə bitməyəcək, digər sahələrdə də biz bunun şahidi olacağıq. Təbii ki, bütün bu səlahiyyətlər cənab prezidentə aiddir, cənab prezident tərəfindən həyata keçirilir. Hər bir şey təcrübədə görünür. Artıq çevikliyin təmin olunması, həm iqtisadiyyatda, həm sosial sahədə, həm kənd təsərrüfatında həyata keçirilməsi üçün yeni strukturlara ehtiyac var idi. Bəzi strukturlarda təkmilləşmə işi aparılmalı idi, bəzilərində yenə də bu işlərin aparılması zərurəti var. Bunların hamısı təbii ki, dövlətin inkişafı ilə, dünyada baş verən hadisələrlə, o cümlədən Azərbaycanın həyatında, iqtisadi islahatlarda və digər sahələrdəki irəliləyişlərlə əlaqədar olan məsələlərdir.

***- Bəs seçkilərlə nə dərəcədə əlaqədardır?***

- Təbii ki, hər bir struktur islahatının qarşısında bir məqsəd var və biz daha təkmil formada 2018-ci il seçkilərinə gedirik.

***- Yəqin ki, bir az sonra seçkilərdə hakim partiyanın namizədinin kimliyi ilə bağlı ənənəvi sual aktuallaşacaq. İndidən bu suala cavabınız varmı?***

- Bu məsələ YAP-da müzakirə olunmayıb, bu, partiyanın rəhbər strukturunun, qurultayının qərarından asılıdır.

***- Administrasiyadakı struktur islahatlarından sonra bəzi şəxslərin adının siyahıda əksini tapmaması onların “vurulması” kimi anlaşılsa da, çox keçmədi ki, həmin şəxslərlə bağlı da prezident sərəncamı oldu. Eyni zamanda yeni, gənc kadrların da təyinatı oldu. Hər halda, maraqlı proses gedir, görünən budur ki, gənc kadrlarla yanaşı, zamanında xidmətləri olmuş şəxslər kənarda saxlanılmır, onlar komandada yer almaqda davam edirlər...***

- Bu, bizim ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bir siyasətdir. Həm partiyada, həm dövlət strukturlarında varislik prinsipi öz əhəmiyyətini və düzgünlüyünü göstərir. Yəni müxtəlif nəsillərin fəaliyyətinin vəhdəti... O baxımdan da həm gənclər təyin olunur, həm yaşlı nəslin nümayəndələri öz iş təcrübəsi, bacarığı ilə əlaqədar dövlətin gələcək inkişafında öz xidmətlərini göstərir, həm orta nəslin nümayəndələri fəaliyyətdədirlər. Hər bir şəxsin xidmətləri nəzərə alınır və bu xidmətlər də vacib olan şərtlərdəndir. İnsan xalqına, millətinə, dövlətinə sədaqətlə xidmət edirsə, təbii ki, struktur da dəyişə, islahat da gedə bilər, lakin o insanın potensialından, savadından, biliyindən dövlətimiz istifadə edəcək. Bu cür insanlar var və hər bir təyinatda bunun şahidi oluruq.

Həmçinin yeni nəsil də gəlməlidir. Artıq onlar da öyrənməlidirlər, təcrübələrini artırmalıdır. Yavaş-yavaş, pillə-pillə, təkamül yolu ilə gəlməlidirlər. Bizi əhatə edən qonşu dövlətlər var ki, orada təkamül yolu ilə yox, inqilabi yolla bu addımları atırdılar və nəticə etibarilə 20 il geriyə düşdülər. Azərbaycanda isə bu, təkamül yolu ilə həyata keçirilir. Dediyim kimi, xidməti olan insanlar da öz qiymətini alıb, bundan sonra da alacaqlar.

***- Uzun müddət ərzində vəzifə tutmuş insanlar daxildə komandadakı gəncləşməyə görə narazılıqlarını büruzə verirlərmi?***

- Bu, təbii bir prosesdir, olmalıdır, getməlidir. Heç nə əbədi deyil. O baxımdan da gərək bunu dərk edəsən, atılan addımları da qiymətləndirib öz kömək və bacarığını, qalan potensialını sərf edəsən. Hər kəs bu həqiqəti dərk edir. Vəzifəyə təyin olunanda yaxşı idi, uzaqlaşanda pisdir? Hər məsələdə qayda-qanun var. Hər bir insan bu gün vəzifəyə təyin olunanda sabah azad oluna biləcəyini də düşünməlidir.

***- Siyavuş bəy, Nazirlər Kabinetinin ləğvi, yaxud bu qurumda ciddi islahatların aparılacağı ilə bağlı fikirlər var. Sizdəki məlumat, yaxud gözlənti nədən ibarətdir?***

- Nazirlər Kabineti konstitusion strukturdur və əgər o ləğv olunacaqsa, bunun üçün referendum keçirilməlidir. Keçən il də referendum keçirildi, o struktur qaldı və fəaliyyətini davam etdirir. Nazirlər Kabinetinin tərkibində hər hansı bir struktur islahatı ola bilər, bu da cənab prezidentin səlahiyyətlərinə daxildir. Qalan halda hələlik bu qurumun ləğvi ilə bağlı heç bir referendum qərarı yoxdur.

***- Bəzi müşahidəçilər hesab edir ki, prezident özünə yeni köməkçilər təyin edibsə və bu instituta xüsusi önəm veribsə, o halda Nazirlər Kabinetinə zərurət olmaya bilər...***

- Hər kəsin özünün yanaşması var. Ən düzgün yolu cənab prezident bilir.

❑ **Elşad PAŞASOY**



# Avtandil müəllimin 7 iyunu

**Xalid KAZIMLI**

**Bu dəfə orta məktəbdə mənə biologiya dərsi demiş Avtandil müəllimdən yazacağam. Bu gün onun doğum günü deyil, amma onun günüdür. 7 iyun və Avtandil müəllim. Onları nəyin birləşdirdiyini bir-iki abzas sonra qeyd edəcəm.**

Biz onunla uzun illərdən sonra təxminən bir ay əvvəl ümumi qohumumuzun toyunda görüşdük. Yaxınlaşdım, görüşdüm. Xatirə qalsın deyə şəkil də çəkdirdik.

Avtandil müəllimlə biz qohumuq. Amma onun bizə dərs dediyi illərdə bir dəfə də olsun münasibətlərimizdə qohumluq amili rol oynamadı. Sadəcə, mən onun sevimli şagirdlərindən biri oldum, o da mənim sevimli müəllimlərimdən biri.

Orta məktəbi, institutu bitirdikdən və təyinat yerində iki il çalışaraq yenidən kəndimizə qayıtdıqdan sonra Avtandil müəllimlə yolumuz 7 iyunda kəsişdi.

1992-ci ilin 7 iyunu idi, ölkədə prezident seçkiləri keçirilirdi, məntəqə seçki komissiyasının sədri Avtandil müəllim idi, katibi isə mən idim. O, bitərəf idi, heç bir partiyanın, hərəkatın üzvü deyildi, mən cəbhəçiydim.

Bizi o komissiyaya, necə deyərlər, xalq seçmişdi. O zaman ölkədə vəziyyət beləydi ki, prezident seçkisini keçirəcək seçki komissiyalarında partokratlar, hərəkatçılar və bitərəflər təmsil olunmalıydı və seçki prosesi qanuni, şəffaf, dürüst keçirilməliydi.

İcra hakimiyyətinin və rayon sovetinin işçiləri kəndimizə gəlib seçki komissiyasının üzvlərini seçərkən müəllimlər, kənd ağsaqqalları Avtandil müəllimin namizədliyi üzərində dayanmışdılar. Çünki o, həm savadlıydı, həm də prinsipial və ədalətliydi.

Məni də xəbərim belə olmadan cəbhəçilər namizəd göstərmişdi.

O zaman ikimiz və digər komissiya üzvləri oturub səs verəcək adamların siyahısını yenilədik. Əziyyətli bir iş idi, amma çatdırdıq. Məntəqəmizdə səsvermə hüququ olan şəxslərin hamısının adlarını cədvəllərə yazıb idarə binasının önündəki lövhəyə yapışdırdıq.

1992-ci ilin bu günü seçki məntəqəsinin qapısını açıb içəri girəndən və yerlərimizi tutandan sonra Avtandil müəllim üzünü komissiya üzvlərinə və yaxınlıqda olan fəal şəxslərə tutub dedi ki, bu gün burada bir adama iki bülleten verilməyəcək, hər şey obyektiv və dürüst olacaq.

Doğrusu, bizdən saxtakarlıq-filan tələb edən də yox idi. Hər şey bizim vicdanımıza qalmışdı.

Bundan əvvəlki seçkilərdə bir adam bütün ailə üzvlərinin yerinə səs verirdi, bununla belə, insanlar seçkiyə gəlmirdi, çox gəlirdisə, 5-10 faiz seçici məntəqənin qapısından içəri girirdi.

1992-ci ilin 7 iyununda isə vəziyyət fərqli oldu. Səhərdən axşama qədər seçici növbəsi ilə işlədik. Bir stəkan çay içməyə belə vaxt olmadı. Avtandil müəllim başda olmaqla, çox obyektiv bir seçki keçirdik. Gerçəkdən də bir adama iki bülleten vermədik. Hətta doğma əmim mənə yaxınlaşaraq, növbədə, qapının ağzında gözləyən həyat yoldaşının bülletenini almaq istəyəndə də üzgörənlik etmədik.

Ən qəribəsi isə Avtandil müəllimin və mənim ortaq qohumlarımızın məntəqəyə düz 8 tamamda, məntəqəni bağlı elan etdikdən 5 saniyə sonra gəlməsi oldu. Onlar Elçibəyə səs vermək üçün gəlmişdilər. Amma biz onlara beş saniyə belə güzəştə getmədik, səs vermələrinə imkan yaratmadıq ki, seçkinin obyektivliyinə kölgə düşməsin.

Səslər səliqəli bir şəkildə sayıldı, yetərsay zor-bəla alındı, səhərdən axşama qədər davam edən növbəyə baxmayaraq, seçkiyə 52 faiz seçici gəlmişdi. Belə çıxırdı ki, indiyədək keçirilən seçkilərdə məntəqəyə 5 faiz də adam gəlmirmiş.

Bizim məntəqədə Elçibəy 65, Nizami Süleymanov 33 faiz səs almışdı. Yerdə qalan 2 faiz isə o biri namizədlərin arasında bölünmüşdü, hərəsinə 3-4 adam səs vermişdi.

O vaxtdan 25 il keçib, biz ölkədə çox seçkilər, məntəqə sədrləri, katibləri görmüşük. Hər dəfə şəffaf seçkidən söhbət düşəndə gözümün önünə əziz müəllimimin obrazı gəlir. Mənim üçün o, prinsipiallıq, dürüstlük, obyektivlik simvoludur.

Hələ onu da nəzərə alaq ki, o zamana qədər biz heç vaxt seçki komissiyasının üzvü olmamışdıq. Heç ondan sonra da olmadıq.

Sözümün canı odur ki, yaxşı, şəffaf, legitim seçki keçirmək üçün əsas tələb olunan şey təcrübə deyil, obyektiv olandan sonra heç bir çətinliyi yoxdur.



# Gürcüstan Azərbaycanı 8 gün sonra təbrik etdi - ilginc səbəb

## Qabil Hüseynli: "Rəsmi Tiflisin bu addımını kifayət qədər qüsurlu sayıram"

**Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin Respublika günü ilə bağlı iyunun 5-də Azərbaycana təbrik göndərməsi ciddi müzakirələrə səbəb olub. 8 gündən sonra göndərilən təbrik Azərbaycan tərəfdən qınaqlara tuş gəlib. Bunu sosial şəbəkələr və mətbuatda açıq şəkildə görmək mümkündür.**

Təsadüfi deyil ki, ABŞ başda olmaqla, Avropa dövlətlərinin başçıları 28 maydan öncə və həmin günü təbriklərini göndərdilər, amma qonşuluğumuzda yerləşən Gürcüstanın 8 gündən sonra təbrik etmək yadına düşdü. Əksəriyyət məktubun yubanmasına səbəb kimi mayın 29-da Gürcüstan ərazisində saxlanılan Əfqan Muxtarlının həbsini göstərirlər. Bu həbsdən sonra daxildən və xaricdən ciddi qınaqlara tuş gələn gürcü hökumətinin bu təbriki gecikdirdiyi, bir növ ara sakitləşəndən sonra göndərdiyi ehtimal edilir. İstənilən halda təbrikin yubanmasının Azərbaycana hörmətsizlik olduğu, münasibətlərə neqativ təsir edə biləcəyi qeyd olunur.

**Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli bu cür təbriklərin vaxtında həyata keçirilməsinin prinsipial əhəmiyyət daşıdığını vurğuladı:** "Gürcüstan tərəfin bu addımını kifayət qədər qüsurlu sayıram. Çünki bu qədər gec müddətdə göndərmək lovğalıq kimi dəyərləndirilə bilər. Düzdür, Gürcüstan tərəfin məsələ ilə bağlı öz arqumentləri var. Bu arqumentlər əsasən Əfqan Muxtarlının həbsi ilə bağlıdır. Həmin arqumentlərin də yaranmasına səbəb gürcü müxalifətinin ardıcıl olaraq, Gürcüstanın hakimiyyət orqanlarına təzyiqləridir. Tez-tez mitinqlər keçirirlər. Bu kontekstdə beynəlxalq qurumların da bəzilərinin gürcü hökumətinə təzyiqləri var. Bu hələ də davam edir. Gürcüstan qərbmeylli siyasət yürütməklə Qərbə inteqrasiya etmək istəyir. Hədəf NATO, Avropa Birliyidir. Bu sarıdan Gürcüstan hökuməti beynəlxalq qurumların təzyiqlərini nəzərə almaya bilməzdi. Amma bununla belə, qətiyyən Gürcüstan prezidentinə haqq qazandırmaq niyyətində deyiləm. O, komandada kifayət qədər müstəqil, nüfuzlu şəxsdir. Ölkəmizə də xüsusi münasibəti ilə seçilən şəxsdir. Üstünlüklərindən yararlanıb, təbrikini vaxtında göndərə bilərdi. Amma bunu etməməsi təbrikin əhəmiyyətini heçə endirir, Gürcüstanın özünü də hörmətdən salır. Həbs edilən jurnalist olsa da, həbsin motivləri əvvəl araşdırılacaq, istintaq gedəcək, ondan sonra da məhkəmə prosesi başlayacaq. İndidən belə hay-küy qaldırmaq, buna əsaslanaraq təbriki gecikdirmək uğurlu siyasi gediş deyil. Əksinə, Gürcüstan prezidentini hörmətdən salan, iki ölkə arasındakı münasibətlərə xələl gətirən addım sayıla bilər. Düşünürəm ki, bu keçici bir haldır. Bütün məsələlərə aydınlıq gətiriləndən sonra təbrik ünvanlanıb. Azərbaycan tərəfi Gürcüstanın önəmini dərindən dərk edir. Amma gərək gürcü tərəf də bunu dərk etsin. Azərbaycan bu ölkə üçün olduqca mühümdür. Vaxtilə Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili demişdi ki, ruslar Gürcüstana hücum etdiyi vaxt Azərbaycan olmasaydı, müstəqilliyimizi itirərdik. Hər bir gürcüstanlı bilməlidir ki, bu gün Gürcüstanın büdcəsinin ən azı 48%-i Azərbaycanın hesabına formalaşır. Eyni zamanda qonşu ölkəni neft, qazla təmin edirik. Məsələn, elektrik enerjisinin 8 ildir haqqını hələ ala bilməmişik. Gürcüstan bunları anlamalı, dövlətlərarası münasibətlərdə fundamental dəyərləri nəzərdən qaçırmamalıdır".



**Politoloq birmənalı şəkildə təbrikin gecikməsini Əfqan Muxtarlının həbsi ilə əlaqələndirdi:** "Burada başqa səbəbləri görmürəm. Bu məsələdə gürcü müxalifətinin son günlərdə fəallaşması, bu həbsdən yararlanmağa çalışması da mühüm rol oynadı. Gürcü hakimiyyəti bir qədər çəkindi. Bu çəkinmədə də bu cür yanlışlığa yol verdilər. Acığı, düşünmürəm ki, bu məsələni dramatikləşdirmək lazımdır. Qarşı tərəfin burada mövqeyini müəyyən qədər başa düşmək lazımdır. Çünki qarşı tərəfi olduqca pis duruma salmışdılar. Burada beynəlxalq təşkilatlarla gürcü müxalifəti birləşmişdi. Bu həbsdən hərtərəfli istifadə etməyə çalışırdılar. Azərbaycan tərəfi bu hadisələrin içindədir və hər şeyi yaxşı bilir. Bu baxımdan, təbrikin gecikdirilməsini rəsmi Bakının problemə çevirməyəcəyini düşünürəm".

**❑ Cavanşir ABBASLI**

# Əfqan Muxtarlını həbsdən buraxmadılar



**İyunun 6-da Bakı Apelyasiya Məhkəməsində Əfqan Muxtarlı barəsində Səbayel Rayon Məhkəməsinin qərarından verilən şikayətə baxılıb.APA-nın xəbərinə görə, hakim İlqar Murquzovun sədrliyi ilə keçirilən prosesdə şikayət təmin edilməyib. Məhkəmə prosesində Əfqan Muxtarlının özü də iştirak və çıxış edib. O, irəli sürülən ittihamların uydurma olduğunu, jurnalist faliyyətinə görə sifarişlə həbs edildiyini bildirib.**

Proses qapalı keçirilsə də, Müsavat başqanı Arif Hacılı, başqan müavinləri Elman Fəttah, Fərəc Kərimli, MGT sədri Əbülfəz Sadıqbəyli, Müsavatın departament rəhbəri Kərimxan Zeynalov və digər müsavatçılar məhkəmə zalının önündə Əfqan Muxtarlıya dəstəyini ifadə ediblər.

Bu arada vəkil Elçin Sadıxov istintaqla bağlı yeni məlumat yayıb.

"Əfqan Muxtarlı barəsindəki saxta cinayət işini "araşdırılması" üçün Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinə veriblər"- Elçin Sadıxov bildirib. (bastainfo.com)

Qeyd edək ki, mayın 31-də Səbayel Rayon Məhkəməsinin qərarı ilə Ə. Muxtarlı barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Ə. Muxtarlı mayın 29-da saat 22.40 radələrində Balakən rayonu ərazisində Azərbaycan dövlət sərhədini qanunsuz keçdikdən sonra Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb. Saxlanılarkən o, xidmət əməkdaşlarına müqavimət göstərib. Ə. Muxtarlı inzibati qaydada tutularaq üzərinə şəxsi axtarış keçirilib, ondan külli miqdarda nağd pul vəsaiti və digər əşyalar aşkarlanaraq götürülüb.

Ə. Muxtarlıya qarşı Cinayət Məcəlləsinin 318-ci (dövlət sərhədini qanunsuz olaraq keçmə), 206-cı (qaçaqmalçılıq) və 315.2-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri üzrə ittiham irəli sürülüb.

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə prosesi davam edir. Ötən prosesdə ifadə verənlərdən biri də sabiq nazir Eldar Mahmudovun müavini Hilal Əsədovun həyat yoldaşı olub. Hazırda 4 saylı uşaq poliklinikasında baş həkim işləyən Nüşabə Əsədova "səkkizinci kilometr bazarı"nın yağmalanması, zorla, şantajla sahiblərinin əlindən alınması epizodu üzrə ifadə verib.**

# Eldar Mahmudovun generalları "8-ci kilometr bazarı" savaşından qalib çıxır

## Hakim bazarın sahibi Salman Səfərovu həlledici mərhələdə məhkəmədən qovdu; generalın xanımı Nüşabə Əsədovanın söylədikləri unuduldu?

"Vosmoy" bazarının sahiblərindən zorla alınması haqda məlumatlar yeni deyil. 2015-ci ildə MTN-də məlum həbslərdən illər öncə mətbuatda bu haqda məlumatlar olub. Detallı olmasa da, bilinirdi ki, bazarı sahiblərinin əlindən generallar alıb. Belə götürəndə elə indinin özündə də bazar düyününün tam açıldığını söyləmək olmaz.

2015-ci ildə MTN-dəki məlum olaylardan cəmi 1 ay sonra N.Əsədova criminal.az saytına açıqlama vermişdi. Xanım Əsədovanın dediklərindən bir hissəyə diqqət edək.

**Sitat:** "Haradadır o obyektlər? Göstərsinlər, mən də yerini tanıyım. Siz gəlib evimə, bağıma baxsanız, görərsiniz ki, heç nəyimiz yoxdur".

Hər şeyə şübhə ilə yanaşan istintaqçılar ittiham aktına generalın həyat yoldaşı N.Əsədovanın ifadəsini yazıblar. N.Əsədova da məhkəmədə deyib ki, ittiham aktında yazılanları təsdiqləyir. Baş həkim məhkəmədə də deyib ki, bazarı atası alıb, özü də həyat yoldaşından borc götürüb alıb və sonradan ona bağışlayıb. Yəni bu qədər sadə.

**N.Əsədovanın mətbuatda yayılan və məhkəmədə söylədiyi ifadəsindən sitat:**

"2005-ci ilin sonu, 2006-cı ilin əvvəllərində bazarın satılmasını atama ərim Hilal Əsədov dedi. Pulu az idi. Hilal evdən 80 min dolları götürüb, atama verdi. Atam bazarın yarısını alaraq, öz adına rəsmiləşdirdi. Bazarın digər hissəsini isə Elşən Hüseynov almışdı. Sonra atam bazarı mənə bağışladı".

2 həftə öncə "MTN işi"ndə eyni epizod üzrə - "Vosmoy" bazarının sənədli-sübutlu sahiblərindən olan Salman Səfərovun söylədiklərinə də diqqət edək.

**S.Səfərov hakimlərin diqqətinə çatdırıb ki, bazar 2001-ci ilə qədər Çingiz Əsədov, Səftər və Abdulla adlı şəxslərin olub:** "1995-ci ildən 1999-cu ilə qədər mən həmin bazarda meyvə-tərəvəzin topdansatışı ilə məşğul olmuşam. Həmin dövrdə qardaşlarım bazar işi ilə məşğul olmurdular. 1999-cu ilin sonlarında Çingiz Əsədov Əlisa Məhərrəmova və mənə təklif etdi ki, bazarı sizə icarəyə verim, işlədin. Razılaşdıq ki, bazarın 50 faizini bizə icarəyə verirlər. Çingiz bazarda otursa da, digər iki şəxs demək olar ki, bazara gəlmirdilər. Həmin gecə digər şəriklər- Səftər və Abdulla da bazara gəldilər, razılaşmada iştirak etdilər. Bundan 2-3 ay sonra Çingiz Əsədov bazarı tam olaraq bizə icarəyə verdi. 2001-ci ilin əvvəllərinə qədər Çingiz Əsədovun qardaşları Elşən, Əsrəddin, Fəxrəddin, Həbib, Vahid Əsədovlar da bazarda ayrı-ayrı işlərlə məşğul idilər. 2001-ci ilin əvvəlində Elşən Əsədov işlətdiyi dükanın icarə haqqını vermədiyinə görə Çingiz Əsədov onu özünün mühafizəçilərinə döydürdü. Bundan sonra Elşən Əsədov gedib Əsrəddinin dükanından yağ bıçağını götürüb Çingizi öldürməyə gəldi. Elşən onu sakitləşdirməyə çalışan mühafizəçi Azəri öldürdü. Mühafizəçi öləndən sonra Elşəni də, Çingizi də tutdular. Sonradan Ələddin adlı qardaşları Çingizi həbsdən azad etdirmək üçün hamımızdan pul yığdı. Çingiz Əsədov azad olunandan sonra borcları qaytarmaq məqsədilə, şəriklərinin adına xələl gəlməsin deyə bazardan uzaqlaşmaq istədiyini dedi. Hələ o dövrdə Çingiz Əsədova dedim ki, narahat olmasın, borc-xərci işləyib verəcəyik. Çingiz dedi ki, burada qala bilməz, şərikləri ilə də razılaşıb ki, bazarı satıb Moskvaya qayınlarının yanına gedir. 2001-ci ilin əvvəllərində bazarı 220 min dollara satırdı. Həmin vaxt biz təklif etdik ki, bazarın 50 faizini bizə sat, alaq. Çingiz Əsədov bizdən 120 min dollar aldı. Bundan sonra notariusa gedib tam ortaqlıqla bağlı razılığını bildirdi, qardaşım Cəfər Səfərov bazarın tam yarısına sahib oldu. 2002-ci ilin ortalarında Çingiz Əsədov dedi ki, qalan 50 faizi də satıram. İmkanımız yox idi, borc alıb, bazarı tam olaraq ondan aldıq. Çingiz Əsədovun ailə üzvləri də notariusa gəlib alqı-satqıya etiraz etmədiklərini bildirdilər".



**S.Səfərov deyir ki, 2005-ci il dekabrın 16-na qədər bazarda işləyiblər:** "Həmin gün bazardakı ofisimizə MTN-çilər basqın etdi. Ofisdə qardaşım Qəhrəman, bazarın direktoru Əyyub Novruzov, mühasib Akif Əzimov, mən və başqa işçilər də vardı. Onlar Qəhrəmanı tutdular, məni soruşdular, dedim ki, burada idi, getdi. Oradan bazarın sıravi işçisi kimi çıxdım və qardaşım Cəfərə baş verənlər haqda xəbər verdim. Sonradan bildim ki, MTN-çilər Akif Əzimovu, Qəhrəmanı, Əyyub Novruzovu özləri ilə aparıblar. Bundan sonra Akif Çovdarov dövrəyə girdi və bazarı əlimizdən aldı. Həmin vaxt biz haqq səsimizi ölkə rəhbərliyinə çatdırmaq üçün yollar axtarırdıq. İstintaqa o dövrdə ölkə rəhbərliyinin adına, o dövrdə milli təhlükəsizlik nazir olan Eldar Mahmudovun adına vurduğum teleqramların surətini təqdim etmişəm. Həmin teleqramda bildirirəm ki, bizə məxsus bazarı general Akif Çovdarov mənimsəyib, zor gücünə, qardaşlarıma işgəncələr verməklə əlimizdən alıb. Həmin teleqramların surətini məhkəməyə də təqdim edirəm. Burada Akif Çovdarov, Hilal Əsədovun yaxınları elə danışırlar ki, sanki bazarı biz onların əlindən almışıq. Bu cinayət bizə qarşı törədilib".

**S.Salmanov hakimlərə üzünü tutaraq deyib:** "Bu gün Hilal Əsədov öz "KQB" üsullarından istifadə etməklə ictimai rəyi çaşdırmaq istəyir. Yalandan xəbər yayırlar ki, guya bizim Fərhad və Rafiq Əliyevlərlə əlaqəmiz olub. Başkəsən, cinayətkar bunlar yox, bizik. Əgər bizim cinayətimiz var idisə, bu illər ərzində bizi niyə həbs etməyiblər?"

**S.Salmanov məhkəmədə vəsatətlə çıxış edərək bazarın keçmiş şəriklərindən olan Səftər və Abdulla adlı şəxslərin məhkəməyə şahid qismində çağırılmasını xahiş edib. Deyib ki, bazarın alqı-satqısı razılaşmasında hər 3 şərik - Səftər, Abdulla və bu gün məhkəmədə Akif Çovdarovun dediyi ilə hərəkət edən Çingiz Əsədov iştirak ediblər:** "Çingiz Əsədov həmin razılaşmanı dana bilər, amma digər iki şəxs də var axı. Qoy onlar da məhkəməyə gəlsinlər, biz Səfərov qardaşlarının bazarın onlardan pul verib aldığımızı və ya başqa formada əllərindən alınıb-alınmamasını söyləsinlər. Onda bilinəcək ki, kim həqiqəti deyir, kim isə yalan danır".

S.Səfərovun vəsatətindən sonra məhkəmədə ara qarışıb, ona məhkəməyə şahid qismində çağırılmasını xahiş etdiyi hər iki şəxsin hazırda böyük vəzifələr daşıdığını deyiblər. Özünü də məsuliyyətli olmağa çağırıblar. Qarışıqlıq vəsatətin təmin olunmaması ilə sonuclanıb. Yəni məhkəmə "Vosmoy" bazarı düyününü açmaq üçün şahidin təqdim etdiyi vəsatəti heç bir əsas göstərmədən təmin etməyib. Bu vəsatətin müəllifi olan S.Səfərovu sonrakı proseslərə ümumiyyətlə buraxmayıblar. Məhkəmə üçün son dərəcə vacib, həlledici məqamda Salman Səfərovu zaldan çıxarıblar və onu məhkəməyə buraxmırlar. Halbuki həqiqətin üzə çıxması üçün bu şəxsin ifadələri, digər şəxslərlə üzləşdirilməsi göydəndüşmə fürsətdir. Hakimlər isə bu fürsəti özlərindən uzaqlaşdırıblar. Niyəsini "Vasmoy" bazarındakı alverçilər bilir.

Belə bir vəziyyətdə generalların "Vosmoy" bazarı uğrunda savaşı, çarpışması hazırda məhkəmə müstəvisində davam edir. Udan tərəfin Eldar Mahmudovun generallarının olacağına isə heç bir şübhə yoxdur.

❑ **E.MƏMMƏDƏLİYEV**

# "Neft pulu ilə Azərbaycanı yenidən qurmaq olardı" iddiasına reaksiya

## Qubad İbadoğlu: "Yalnız vəsaitlərlə ölkəni yenidən qurmaq mümkün deyil"



**Milli Məclisin deputatı Əli Məsimli yeni açıqlaması ilə gündəmə gəlib. O, Neft Fondunun vəsaitlərinin səmərəsiz xərclənməsi məsələsinə toxunub və qeyd edib ki, bu vəsaitlər yeni Azərbaycan qurmaq üçün yetərli idi: "Hazırda Azərbaycanın xarici borcu ümumi daxili məhsulun 20 faizi həcmindədir. Azərbaycan Beynəlxalq Bankının xarici öhdəliklərinin bir qismini dövlətin öz üzərinə götürməsi isə bu rəqəmi 30 faizə çatdıracaq".**

Əli Məsimlinin sözlərinə görə, yaxın gələcəkdə neftdənkənar sahə büdcəyə neft qədər vəsait cəlbinə imkan yaratmaya bilər. Lakin islahatları dərinləşdirməklə bu çatışmazlığı aradan qaldırmaq olar. O əlavə edib ki, struktur islahatları dərinləşdirmək, çevik idarəetmə strukturunu yaratmaqla, idarəetmənin səmərəliliyini artırmaqla korrupsiyanın aradan qaldırılmasına nail olmaqla, büdcəyə əlavə yüz milyonlarla vəsait daxil ola bilər.

**Deputat qeyd edib ki, son 10 ildə Azərbaycan Dövlət Neft Fondundan həm banklar vasitəsilə, həm də büdcəyə transfertlərlə iqtisadiyyata vəsait qoyulsaydı 200 mlrd. manatdan çox olub:** "Bu, yeni Azərbaycan qurmaq üçün yetərli idi. Amma həmin vəsaitin istehsalla əlaqəsi zəif olduğuna görə büdcəyə əlavə vəsait daxil olmur".

**Deputatın bu fikirlərini dəyərləndirən iqtisadçı ekspert Qubad İbadoğlu bildirdi ki, bu günə qədər neftdən gələn vəsaitlər 135 milyard dollar təşkil edib:** "Onun da təxminən 100 milyard dollara yaxını xərclənib, 356 milyard dollar da Dövlət Neft Fondunun aktivləri kimi saxlanılır. Təbii ki, bu vəsaitlərdən istifadə daha səmərəli, daha rasional ola bilərdi. Bu vəsaitlərin xərclənməsi fiskal qaydalara uyğun aparıla bilərdi. İndi bizim Neft Fondunda 35 milyard dollar yox, 70 milyard vəsaitimiz qalardı. Bu 70 milyard dollar vəsait hazırkı durumda Azərbaycanın böhrandan çıxması üçün, ölkənin neft gəlirlərinin ədalətli istifadəsi baxımından çox önəmli bir baza ola bilərdi. Ancaq hazırda qalan vəsaitlərin bir hissəsi istifadə olunub, təxminən 80 faizə yaxını da kommersiya sektorunda yerləşdirilib. Vəsaitlər daha çox infrastrukturun yenilənməsinə xərclənib və bu da kommersiya predmetinə çevrilib".

**Q. İbadoğlu "qara qızıl"ın insan kapitalına çevrilməsi strategiyasının da baş tutmadığını vurğuladı:** "Bu pullar real sektora yönəldilmədi. Vəsaitlər daha səmərəli, daha şəffaf istifadə oluna bilərdi. Azərbaycan dünya iqtisadiyyatında aparıcı ölkələrdən birinə çevrilə bilərdi. Ancaq təəssüflər olsun ki, biz "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində də işlər görə bilmədik. İndi artıq həmin imkanlar da itirilib. Biz vaxtında bunu dedik, təkliflərimizi Maliyyə Nazirliyinə, Prezident Administrasiyasına təqdim etdik. Lakin buna diqqət yetirən olmadı".

**Ekspert onu da bildirdi ki, bu vəsaitlər ciddi əlavə dəyər yaradan sahələrə yönəldilməyib:** "İstənilən vəsaiti xərcləyərkən əlavə dəyər yaranır. Lakin vəsaitlər real sektora yatırılanda bu dəyər daha çox olur. Neft Fondunun vəsaitlərinin xərclənməsində qeyri-kommersiya sahələri üstünlük təşkil edib. Biz həmin vəsaitlərlə yol çəkmişik, tunel tikmişik. Yoldan və tuneldən hansı əlavə dəyər qazanıla bilər ki...".

**Bu vəsaitlərlə yeni Azərbaycan yaradıla biləcəyi iddiasına gəlincə, iqtisadçı bildirdi ki, neft pulları düzgün idarə olunsaydı, Azərbaycan indikindən daha çox inkişaf edə bilərdi:** "Burada vəsait bir resursdur, bir amildir. Yalnız vəsaitlərlə ölkəni yenidən qurmaq mümkün deyil. Azərbaycanı yenidən qurmaq üçün vəsaitlərlə yanaşı yeni idarəetmə sistemi də olmalıdır. Eyni zamanda digər faktorlar da olmalıydı ki, Azərbaycan yenidən qurulsun".

❑ **Nərgiz LİFTİYEVA**



# Pullanmağın ən qısa yolu

Zamin HACI
zaminhaci@gmail.com

**İdarəetmə qurumlarında təzəlikcə çoxlu islahatlar aparıldı, zəhmətkeşlərimiz gələcəyə ümidlə baxdılar. Örnək üçün, prezidentin müdafiə məsələləri üzrə iki köməkçi-müşaviri işdən azad olundu. Bunlardan biri Vahid Əliyev adlı general idi ki, açığı, zəhmətkeşlərimiz onun adını ilk dəfə eşitdilər. Əsl hərbçi bax belə olmalıdır! Hərbi sirr olan sahədə çalışırdı axı. Ümumiyyətlə, düzgün işləyən dövlət adamını vətəndaşlar adətən tanımırlar. Get İsveçrədə sual ver, heç bilməzlər bizim baş nazir kimdir.**

İkinci hərbi müşavir Məhərrəm Əliyev idi, Məhərrəm müəllim isə uzun illərdir dövlətimizə hər sahədə xidmət eləməklə bir növ administrativ Fiqaro rolunu oynayır. Məhərrəm müəllim gah Bakı şəhər polisinin rəisi olurdu, gah prezidentin hərbi müşaviri. İndi isə onu ədliyyə nazirinə müavin qoydular. Beləliklə, Məhərrəm müəllimin hazırda işləmədiyi cəmi bir-iki güc qurumu qalıbdır. Polis, ordu, ədliyyədə işləyib, qalır DTX və baş prokurorluq. Ömür vəfa etsə, məncə onun potensialından dini işlər komitəsində də yararlanmaq olar - adı da uyğun gəlir.

Din demişkən, bu sahədə islahat isə yazıçı Kamal Abdullanın multikultura, din, etnik məsələ üzrə müşavirlik postunun tamamilə ləğvi ilə sonuclandı. Kamal müəllimi təzəlikcə üsyan ocağına çevrilən Dillər Universitetinə dil tapmağa yolladılar. Bəs necə, bu gün "İmtahana yox!" qışqıran tələbə sabah ingilis dili müəllimi olsa buna koftanın altında necə bülleten daşıtdıracaqsan?

Elə Kamal müəllim də humanitar sistemin Fiqarosudur. Onu Slavyan Universitetini düzəldəndən sonra müşavir qoymuşdular. Məncə bir neçə ilə Kamal müəllim rabitə və yüksək texnologiyalar üzrə müşavir qoyulub oradan Narxoza rektor desantı kimi atılacaqdır, bununla daha bir islahat dövrəsi qapanacaqdır!

Ancaq şübhəsiz, ən önəmli islahat sərhəd xidmətində olmuşdur. Orada Elçin müəllim qabaqlar sərhəd qoşunları komandanı adlanırdı. Bu isə ölkəmizdə bir az ikitirəlik yaradırdı, axı bizdə bir ali baş komandan var. İndən belə Elçin müəllimin vəzifəsi sərhəd xidmətinin rəisi adlanacaqdır. Doğrudur, qabaq da belə adlanırdı. Nəsə, çox qarışdırdım, özünüz bir şey fikirləşin, elə hər bir məsələni qəzetdən oxuyub öyrənmək olmaz. Açığı heç xoşuma gəlmir, qabaqlar oxucularımız işarədən mətləbi anlayırdılar. M yazırdın, bilirdilər məktəb demək istəyirsən, P yazırdın, pul olduğunu anlayırdılar. İndi isə gərək sandığı açıb tökəsən. Olmaz belə. Həyatda müsbət şeyləri də görmək lazımdır. Ancaq ağ-qara rənglər deyil.

Bunu təzəlikcə bir "oxucum" da mənə söylədi. Oxucunu pis mənada dırnaqda yazmıram, sadəcə, adam dedi heç səni oxumuram, ancaq tənqidi şeylər yazırsan, yəqin həyatda ancaq pis şey görürsən. Oxumursa, bunu necə görür, bunun isə sən demə, sirri var: qardaşımız məsafədən insanlara qarşılıqlı təsir edirmiş. Deyir elə edərəm filan gün filan saatda məni fikirləşərsən. (Bunu düz deyir: neçə gündür yadımdan çıxmır ki, mən o cür gülməli söhbətə necə axıra qədər ciddi şəkildə qulaq asdım). Deyir, pul qazanmaq hər kəsin öz əlindədir, bu iqtidara halal olsun, çoxlu pulu var, çünki pulu ürəkdən istəyiblər. Deyir sən də istə, olacaq. Nəsə bir cərəyanları varmış, din kimi şeydir. Kitab linki də atdı poçtuma, dedi oxu, öyrən, adam ol. Kitabda insanlara gənc qalmaq, sevilmək, pul qazanmaq yolları öyrədilirmiş.

İnternetdə axtarış verdim, məlum oldu kitabı yazan tip 51 yaşında xəstəlik və ehtiyac içində ölübdür. Yadıma bir lətifə düşdü. Biri qəzetdə elan verir: "Varlanmağın qısa yolunu öyrədirəm. Ancaq hər kəsə ayrıca məktubda deyə bilərəm. Bunun üçün ünvanıma boş konvert və marka üçün 1 manat göndərin". Bir aydan sonra qəzetdə növbəti elan çıxır: "Ümidvaram bunu artıq başa düşdünüz".

# "Rusiya xüsusi xidmət əməkdaşları Qarabağda" - sensasion gəlişmə

**Dağlıq Qarabağ məsələsi ətrafında qeyri-müəyyənlik davam edir. Bu fonda müharibə ilə bağlı xəbərdarlıqlar artmaqdadır. Bəzi məlumatlara görə, yaranmış kritik durum konfliktin əsas memarı sayılan Rusiyanı da rahatsız etməyə başlayıb. O üzdən müharibə riskini sıfırlamaq üçün Kremlin nəsə etməyə və tərəflərə, xüsusən də Ermənistana təzyiq göstərməyə hazırlaşdığı haqda iddialar var.**



## Ermənistanda panika: "Moskva işğaldakı əraziləri qaytarır..."

### Düşmən ölkədə Kremlin gizli Qarabağ planlarından danışmağa başlayıblar; erməni nəşrindən sensasion iddia: "Rusiya xüsusi xidmət əməkdaşları Qarabağda əhalini təslimçiliyə hazırlayır..."

İstənilən halda, Qarabağ münaqişəsi zonasında vəziyyət heç vaxt olmadığı qədər Moskvanın siyasi-diplomatik fəallığından asılı duruma gəlib. İndi bir növ Kreml də seçim qarşısındadır. Bu xüsusda işğalçı ölkə mediasında son günlər gedən məqalə və təhlillərdə Moskvanın Qarabağ məsələsində verə biləcəyi mümkün qərarlardan dolayı Ermənistanda özünü göstərən təlaş diqqət çəkir. Bu təlaşa və panik ovqata əsas yaradan faktorlardan biri və birincisi isə Ermənistanın müstəqil siyasət yürütmək iqtidarında olmaması, onun Kremldən vassal asılılığıdır.

***

"Ermənistan yalnız formal planda müstəqil ölkədir, mahiyyət etibarilə isə o, nəinki Rusiyanın periferiyasıdır, həm də onun forpostu və poliqonudur". Musavat.com xəbər verir ki, bu barədə 1 in.am erməni nəşri yazıb. Portal qeyd edir ki, belə ərazi vahidləri *(yəni Ermənistan-red.)* özlərinin de-yure müstəqil statuslarına rəğmən, müstəqil siyasətçi sayılacaq subyektlər deyil və mərkəzdən nə əmr gəlsə, onu sözsüz yerinə yetirir.

**Yazıda daha sonra gələn il - parlamentli respublikaya tam keçid ilində Ermənistanın yeni səlahiyyətlərə malik olacaq baş nazirindən Qarabağ məsələsində gözləntilərdən də söz açılır:** "Konkret halda təbii ki, 2018-ci ildə Ermənistan hökumətinin nominal tərkibinin necə olacağı və yaxud erməni kapitulyasiyasının simvolu kim olacaq - prezident, yoxsa baş nazir, - bu, ikinci dərəcəli əhəmiyyət daşıyır. Rusiyanın marağındadır ki, Ermənistandaxili proseslər üçün bir faktor var: Rusiya istəməz ki, Ermənistanda hakimiyyət Kremlin geosiyasi "rəqiblərinin" əlinə keçsin, Ermənistan Avrasiya İqtisadi Birliyinin, KTMT-nin, Rusiya üçün mühüm olan digər birliklərin dağıdılması üçün istifadə olunsun", - deyə rusiyalı politoloq Sergey Markov bildirib. Onun sözləri tamamilə sinik səslənsə də, situasiyanı obyektiv əks etdirir. Ermənistan təəssüf ki, Rusiyanın forpostuna çevrilib - o Ermənistan ki, hətta Kremli maraqlandırırsa belə, yalnız KTMT və Avrasiya Birliyinin maraqlarına xidmət edən poliqon statusunda maraqlandırır. Bu, təkcə Serj Sərkisyanın yox, həm də Ermənistanın birinci və ikinci prezidentlərinin Rusiya təbəəçiliyini qəbul eləməsinin, siyasi sistemin keyfiyyətsizliyinin nəticəsidir".

**Erməni portalın bundan sonrakı qeydləri daha maraqlı sayıla bilər:** "Bu günlər Rusiyanın hərbi-siyasi rəhbərliyi Ermənistanın "forpostlaşmasını" möhkəmlətmək və ya ölkəmiz ərazisində yerləşən Rusiya hərbi bazasının təzədən təchizi üçün yeni təşəbbüsü müzakirə edir. Rusiyanın "Voennoe obozreniye" ("Hərbi icmal") nəşri xəbər verir ki, yəqin tezliklə Şimal Hərbi Dairəsinin 14-cü qırıcı aviasiya alayından Erebunidəki Rusiya bazasına MiQ-29 qırıcıları köçürüləcək. Əlbəttə ki, bizim Rusiyaya sadiq yetkililərimiz hay-küy qaldıracaqlar ki, bəs bununla bizim təhlükəsizliyimiz gücləndir. Ancaq bu, primitiv demaqogiyadır. Ona görə ki, bizdəki Rusiya hərbi bazasının Ermənistanın təhlükəsizliyinə heç bir dəxli yoxdur. Və hətta ehtimal eləsək ki, məsələn, Türkiyə təhlükəsi realdır, o zaman çətin ki, Ərdoğanın dostu Putin Ermənistanı onun hədələrindən qorusun - bu illüziyadır".

**Məqalədə deyilir:** "Söz düşmüşkən, Moskvanı erməni maraqları düşündürmür. O, hətta bu maraqlara qarşı hərəkət edir. Bunu başqa bir rus nəşrindəki məqalə doyası ilə təsdiq edir. Məlum olur ki, bizim sözəbaxan yetkililərimizin rüsxəti ilə Rusiya xüsusi xidmətinin agentləri "DQR"ə (dırnaqlar bizimdir - red.) baş çəkməyə başlayıblar. Onlardan biri isə hətta "Moskovskiy komsomolets" nəşrinin əməkdaşı ilə görüşüb və niyə ikinci erməni respublikasına baş çəkməsindən danışıb. Onların əsl məqsədi - Azərbaycana ərazilərin qaytarılması məsələsində "Artsax"dakı əhalinin ovqatını öyrənmək olub. Belə demək olar ki, Rusiyanın xüsusi xidmətləri Qarabağda erməni maraqları əleyhinə yönəlmiş diversiya fəaliyyəti ilə məşğuldur. Rusiya "xüsusiləri" mahiyyət etibarilə ərazilərin Azərbaycana qaytarılmasını hazırlayır".

***

Əslində problem ətrafındakı son durum diktə edir ki, böyük müharibədən qaçmaq naminə işğaldakı ərazilərin heç olmasa, bir qismi tezliklə öz sahibinə qaytarılsın - qeyd şərtsiz. Əgər Ermənistan böyük və dağıdıcı müharibəyə tuş gəlmək istəmirsə, ayrı yol qalmayıb. Müharibə gələndə isə heç kimdən soruşmur.

**Zatən erməni cəmiyyətində bununla bağlı da bir panik ovqat yaşanmaqdadır. Hərçənd erməni politoloq Manvel Sərkisyan cəbhədəki insidentləri genişmiqyaslı müharibənin mümkünlüyü ilə əlaqələndirməyin əleyhinədir:** "Bu, ən zəif hələqdir, çünki müharibənin təmas xəttinə heç bir aidiyyəti yoxdur. Müharibə - tamamilə ayrı bir qərardır. Təmas xəttində güllələr bütün ilboyu ola və qəfildən müharibə başlaya bilər. Yaxud əksinə, daimi atəşlər müharibəyə gətirməyə də bilər. Müharibə - qərar vermək deməkdir. Bu qərara yardımçı ola, provokasiya törədə bilərlər. Aprelə kimi biz belə təxribatları görmüşük".

***

Göründüyü kimi, düşmən ölkədə həqiqətən də Qarabağla bağlı həyəcan artıb. Bu da Ermənistanın gerçək yiyəsi Rusiyanın problemlə bağlı hansısa qəfil qərar verə biləcəyi ehtimalından qaynaqlanır. Ermənilər, deyəsən, indi-indi anlamağa başlayıblar ki, Dağlıq Qarabağ məsələsində Kreml üçün "erməni maraqları" deyilən məfhum mövcud deyil.

Ucqar əyalətlərin, vassal xalqların, forpost və marionet ölkələrin milli maraqları olmur.

❑ Siyasət şöbəsi

# “Qətər böhranından İran qazanacaq”

## Aida Bağırova: “Türkiyə müəyyən bir zamana qədər bu münaqişəyə qarışmayacaq və böhran Suriya məsələsinə də təsir edəcək”




**İyunun 5-də Səudiyyə Ərəbistanı, Bəhreyn, BƏƏ, Misir Qətər dövlətini terrorizmə dəstək verməkdə ittiham edərək bu ölkə ilə diplomatik münasibətləri dayandırıb. Daha sonra Liviya, Maldiv adaları və Yəmənin mühacir hökuməti də Qətərə qarşı sanksiyalara qoşulub. Qətər diplomatlarının 48 saat, vətəndaşlarının isə iki həftə ərzində adıgedən ölkələri tərk etməsi tələb olunub. Eyni zamanda Qətərlə hava, dəniz və quru sərhədlərini də bağlayıblar.**

Qeyd edək ki, bu hadisə dünyada böyük ajiotaj doğurub. Qətərin ərzaq tələbatının böyük bir hissəsi yeganə quru sərhədi olan Səudiyyə Ərəbistanından daxil olur. Sərhədlərin bağlanması ilə Qətərdə qıtlıq qorxusu yaranıb. Əhali marketlərə axın edib. Bundan başqa, hava sərhədlərinin bağlanması nəticəsində Qətər Hava Yolları şirkəti bir sıra uçuşları təxirə salıb, yerdə qalan uçuşlar isə sadəcə, İran üzərindən həyata keçirilməyə başlayıb. Bundan başqa, adıçəkilən ölkədə ərzaq qıtlığının qarşısını almaq üçün İraq hökuməti bura ərzaq yüklü bir gəmi göndərib.

Qətərlə körfəz ölkələri arasında soyuqluq mayın 23-də ölkə əmirinin rəsmi dövlət agentliyinə verdiyi müsahibəsində Səudiyyə Ərəbistanını ittiham etməsi ilə başlayıb. Əmir məzhəb gərginliyinin regionda böyük fəlakətlərə səbəb olacağını demişdi. Ancaq bu müsahibənin xakerlər tərəfindən saytlara qoyulduğu bəyan edildi və təkzib olundu. Lakin gərginlik davam etdi, Səudiyyə Ərəbistanı və Misir Qətər telekanallarının, saytlarının ölkələrində yayımını əngəllədi. Daha sonra isə Bəhreyn əmiri Qətəri onun ölkəsində xaos yaratmaqda ittiham etdi. İndi isə S.Ərəbistanı, Misir və BƏƏ kimi ölkələr Qətərin Yaxın Şərqdə İŞİD, keçmiş adı ilə “Ən-Nusra Cəbhəsi” qruplaşması kimi terror təşkilatını hətta 11 sentyabr olaylarında ittiham edib. Bundan başqa, Qətər İranla gizli da-



nışıqlar aparmaqda, dini əqidəyə sadiq qalmamaqda ittiham olunub. Qətər XİN-in isə yaydığı rəsmi açıqlamada ittihamların həqiqəti əks etdirmədiyi, verilmiş qərarın “gərəksiz” olduğu vurğulanır və yaranmış vəziyyətə görə təəssüf etdikləri bildirilib.

Yaxın Şərqdə uzun müddətdir yaxın müttəfiqlik əlaqələrinə malik olan Səudiyyə Ərəbistanı və Qətər arasında yaranan bu gərginlik gözlənilməz olub. Doğrudan, Misirdə baş verən hərbi çevrilişi Səudiyyə Ərəbistanının dəstəkləməsi, Qətərin dəstəklədiyi Mursinin devrilməsi iki ölkə arasında soyuqluq yaratsa da, Suriyada, İraqda və Yəmən məsələsində eyni cəbhədə olduqları üçün bu fikir ayrılıqları bariz şəkildə üzə çıxmırdı. Ər-Riyad sammitindən sonra Qətərin açıq şəkildə Səudiyyə blokunda olmadığını gizlətmədi. Görünür ki, səbəblər uzun müddətdir formalaşsa da, son olaraq Ər-Riyadı Vaşinqtonla açıq şəkildə hərbi ittifaq qurması layihəsində olmadığını nümayiş etdirməyə ehtiyac duyub.

Bu dövlət ətrafında böhranda Vaşinqtonun rolunun olduğu, gərginliyin məhz Trampın səfərindən sonra baş verməsi ilə əsaslandırılır. Bundan başqa, körfəz ölkələrinin Qətərə qarşı aqressiyasının arxasında Dohanın Ankara ilə yaxınlaşması, sələfi xəttinə qarşı “ixvan” xəttini müdafiə etməsi də göstərilir. İlk dəfə məhz Qətər öz ərazisində Türkiyə ordusunun hərbi hissəsini yerləşdirib. Qətərə qarşı hücumların əsas məqsədinin Türkiyəni sıxışdırmaq olduğu haqda iddialar Türkiyə mediasında geniş yer alıb. Qətər böhranında ABŞ və Türkiyənin rolu nə qədərdir? Xarici amillər hansı formadadır?

**Şərqşünas-alim, BDU-nun dosenti Aida Bağırovanın fikrincə, son dövrlərdə Qətərin bölgədə və dünyada nüfuzunun artması Səudiyyə Ərəbistanını məyus edirdi:** “Yəni heç cür qəbul etmək istəmirdilər ki, belə bir kiçik ölkə özünü belə aparır”.

**A.Bağırovanın fikrincə, bu hadisələrdə tam olaraq Amerikanın rolunun olduğunu iddia etmək olmaz:** “Sadəcə, rəqabətdə Səudiyyə Ərəbistanı ABŞ-ın dəstəyini aldı. Üstəgəl, böyük silah anlaşması imzalandı. Bu mərhələdə ABŞ anti-İran xəttini də gücləndirir ki, daha çox cəlbedici olsun. Burada məsələ ideoloji olmaqdan daha çox siyasi rəqabət mahiyyətlidir”.

Yeri gəlmişkən, ötən gün Türkiyənin baş naziri Binəli Yıldırım bildirib ki, Ankara Qətər böhranının dialoq yolu ilə həll olunacağına ümid edir. Ondan əvvəl isə Türkiyə prezidenti gərginliyi yumşaltmaq üçün Səudiyyə kralı Salmanla telefonla danışıb. A.Bağırovanın fikrincə, Türkiyə bir zamana qədər bu münaqişəyə qarışmayacaq. Çünki ərəblər arasında mübarizə Ankaraya sərf edir. Onun fikrincə, Türkiyə bu məsələdə tərəf deyil.

Qeyd edək ki, bəzi dairələrdə hətta Qətərə hərbi müdaxilə olması ehtimalından bəhs edirlər. Ancaq həmsöhbətimiz deyir ki, hərbi müdaxilə mümkün deyil, əksinə, Səudiyyə Ərəbistanı üçün təhlükəyə çevrilə bilər. Bu səbəbdən də ekspertə görə, hərbi qarşıdurma olmasa da, lokal radikal qrupların fəallaşması və terror aktlarının olması mümkündür. Ümumilikdə isə proses daha çox əzələ nümayişi və təzyiqlərlə özünü göstərəcək.

A.Bağırova deyir ki, bu prosesdə qazanan tərəflərdən biri də İran olacaq. Gərginlik İran üçün divident gətirəcək. Eyni zamanda Qətər böhranı Suriya münaqişəsi və buradakı savaş silahlılara da təsir edəcək. Hətta Qətər və Səudiyyə Ərəbistanının dəstəklədiyi silahlı qrupların kənarda qalması ehtimalı var. Ancaq ekspert böhranın hələ bir müddət davam edəcəyini və təsirlərinin olacağını düşünür.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Almaniya “İncirlik” bazasını tərk edir

## Bundestaq öz əsgərlərinin Türkiyədən çıxarılmasını işləyir, müsbət qərar olarsa...



**İyunun 19-da Almaniya parlamenti alman əsgərlərin və hərbi təyyarələrin Türkiyənin “İncirlik” hərbi hava bazasından çıxarılması məsələsini müzakirə edəcək. Doğan Xəbər Agentliyi Almaniya mediasına istinadən bildirir ki, xarici işlər naziri Siqmar Qabriel “İncirlik” bazasındakı almanların çıxarılmasının yeganə çıxış yolu olduğunu deyib.**

Lakin Almaniya mediası son qərarı deputatların verəcəyini, bazanın tərk edilməsinin variantlardan biri olaraq qaldığını yazıb.

Qeyd edək ki, Almaniya və Türkiyə arasında münasibətlər ötən il Almaniya parlamentinin “erməni soyqırımı” qanunu qəbul etməsindən sonra soyuqlaşıb. 15 iyul qiyamından sonra isə daha da pisləşib. Almaniya hökuməti bu ölkəyə sığınacaq üçün müraciət edən türkiyəli zabitləri qəbul edib. Eyni zamanda rəsmi Berlin Ankaranın söz və ifadə azadlığını məhdudlaşdırmasını tənqid edir.

“İncirlik” ətrafında böhran isə Almaniya parlamenti deputatlarının bazadakı alman əsgərlərinə baş çəkmək istəməsi ilə başlayıb. Ankara alman deputatların “İncirliyə” girməsinə icazə verməyib. Almaniya hakimiyyəti isə bazaya girişə icazə verilməyəcəyi təqdirdə hərbçilərin başqa yerə köçürüləcəyini bəyan edib.

Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, alman deputatlar “İncirlik” deyil, Konya vilayətində yerləşən NATO bazasını ziyarət edə bilər. Eyni zamanda nazir gələcəkdə şərtlər müvafiq olarsa, alman heyətinin “İncirliyə” gedə biləcəyini, ancaq hələlik şərtlərin ziyarət üçün uyğun olmadığını söyləyib.

Almaniyanın müdafiə naziri Ursula Von Der Leyen yaxın zamanlarda parlamentin müvafiq qərarı verəcəyini bildirib. Nazir deyib ki, “İncirlik” bazası İŞİD-ə qarşı mübarizə üçün çox əlverişlidir, lakin Ankara və Berlin arasında başlayan böhran səbəbindən artıq bazanı tərk etməyə hazırlaşırlar. Nazir eyni zamanda artıq “İncirlik” bazasına alternativin tapıldığını deyib. Onun sözlərinə görə, İordaniyada yerləşən “əl-Azrak” hava bazası “İncirlik” əvəzinə seçilə bilər. Artıq bununla bağlı İordaniya kralı ilə danışılıb və kral bazanın köçürülməsini dəstəkləyib.

Qeyd edək ki, NATO-nun “İncirlik” hərbi hava bazasında hazırda Almaniya ordusunun 280 əsgəri və hərbi təyyarələri mövcuddur. Müdafiə naziri deyib ki, köçürülmə qərarı verildikdən sonra hərbçilərin və təxminən 10 min ton yükün daşınması müəyyən zaman alacaq və bu da İŞİD mövqelərini bombalayan təyyarələrin fəaliyyətinə təsir edəcək.

Xatırladaq ki, Almaniya baş naziri Angela Merkel də Brüsseldəki NATO toplantısında Türkiyənin alman deputatları “İncirlik” bazasına buraxmayacağı təqdirdə hərbçiləri bazadan çıxaracağını bildirmişdi. Belə bir qərar olarsa, bu, Almaniya-Türkiyə və AB əlaqələrinə növbəti ciddi zərbə olar. Hələlik Türkiyə hakimiyyətinin reaksiyası məlum deyil. Ancaq görünən odur ki, Ankara bazadan almanların çıxarılmasından narahat deyil.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017



# Jurnalistlər üçün tikiləcək 3-cü bina nə zaman hazır olacaq?

## Üçüncü binanın inşası ilə bağlı verilən qərar yüksək qiymətləndirilir...

**Prezidentin müvafiq sərəncamı əsasında jurnalistlər üçün inşa edilmiş ikinci yaşayış binasındakı mənzillərin bölgüsündə namizədlərin müəyyənləşdirilməsi ilə bağlı redaksiyalarda iclaslar keçirilir. Binanın 22 iyul tarixində açılışı gözlənilir.**

Bu arada Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli bildirib ki, mənzilə ehtiyacı olan jurnalistlər üçün dövlət tərəfindən üçüncü bina da tikiləcək. Ehtimal olunur ki, ikinci bina təhvil verildiyi gün jurnalistlər üçün üçüncü binanın təməli qoyulacaq.

Qeyri-rəsmi məlumatlara görə, qarşıdakı 4-5 il ərzində üçüncü binanın tikilərək tam hazır olması planlaşdırılır. Binanın əvvəlki iki binanın yaxınlığında tikilməsi nəzərdə tutulub. Jurnalistlər də "Yeni Müsavat"a açıqlamalarında üçüncü binanın inşası ilə bağlı verilən qərarı müsbət qarşılayıblar.

"Xalq Cəbhəsi" qəzetinin **baş redaktoru Elçin Mirzəbəyli** qəzetimizə bildirib ki, o, üçüncü binanın inşa ediləcəyindən əmin olub: "Çünki cənab prezident birinci binanın açılışında da bununla bağlı fikir səsləndirib söyləmişdi ki, orada bir jurnalist şəhərciyi olacaq. Bu baxımdan da prosesin davamlı olacağına qətiyyən şübhə etmirəm. Hər zaman olduğu kimi, Azərbaycan prezidenti yenə də jurnalistlərə xüsusi diqqət və qayğı göstərdiyini bir daha nümayiş etdirdi. Həmkarlarımın indi və gələcəkdə mənzillə təmin olunacağı, ən böyük problemlərini həll edə biləcəkləri məni sevindirir. Təbii ki, buna görə yalnız dövlət başçısına minnətdarlıq etmək lazımdır. Düşünürəm ki, bu prosesin davamlı olması media sahəsində bir sıra mühüm problemlərin aradan qaldırılmasına zəmin yaradacaq. Heç kimə sirr deyil ki, indiki şəraitdə jurnalistin öz gəliri ilə mənzil alması mümkün deyil və bunun üçün uzun zaman lazımdır. Çox sevinərəm ki, bütün həmkarlarımın mənzili olsun".

**Qazilər.az saytının rəhbəri Rey Kərimoğlu da hesab edir ki, jurnalistlərə mənzillərin verilməsi çox yaxşı haldır:** "Birinci binadan xeyli sayda evsiz jurnalist mənzil aldı. Ümid edirəm ki, bu il də elə olacaq. Ancaq düşünürəm ki, qaydalarda bir qədər dəyişiklik etmək lazımdır. Sonuncu iş yeri kimi üç ilin nəzərdə tutulması, hesab edirəm ki, doğru yanaşma deyil. Ölkə başçısı bu cür böyük iş görüb, vəsait ayırır, ancaq 15-20 ilin jurnalistləri kənarda qala bilər. Eyni zamanda əsas arzum budur ki, şəhid övladları, Qarabağ əlilləri jurnalistləri də ev bölgüsündə nəzərə alınsın. Kim ev alacaqsa, Allah xeyir versin. Bu işdə əməyi keçən hər kəsə öz adımdan minnətdaram. Birinci binada 3 ildir ki, mən də yaşayıram. Hər bayramda, xeyir işlərdə prezident başda olmaqla, əməyi keçən hər kəsi minnətdarlıqla anırıq. Mənzil ciddi məsələdir. Ümid edirik ki, növbəti binalarda da hər şey obyektiv olacaq və davam etdiriləcək".

**Modern.az saytının baş redaktoru Elşad Eyvazlı da 3-cü bina ilə bağlı verilən qərarı çox yüksək qiymətləndirir:** "Bundan öncə mənzil alan jurnalistlərin aralarında demək olar ki, gənc nəsil yoxdur. Yəni şərtlərə görə, ev verilən hər kəsin 10 il jurnalist fəaliyyəti olmalı idi. İndi də bir sıra gənc jurnalistlər qoyulan şərtlərə görə mənzil ala bilməyəcəklər. Ancaq 3-cü binadan gənclər də yararlana biləcəklər. Artıq burada ayrı-seçkilik, yaş məhdudiyyəti aradan qalxacaq. Bu da böyük uğurdur. Ona görə də qərarı uğurlu hesab edirəm".

Onu da qeyd edək ki, birinci binada 156 mənzil jurnalistlərin ixtiyarına verilib. İkinci binada isə bu say 250 olacaq.

❑ **Əli RAİS**

# Sizə yalan söylədilər...

## Bədəninizlə bağlı doğru hesab etdiyiniz 99 yanlış

**Bizə hərdən elə gəlir ki, bədənimizlə, bədənimizdə baş verən proseslərlə bağlı hər şeyi dəqiqliklə bilirik. Çox oxuyuruq, çoxlu material izləyirik, həkimlərin müsahibələrinə bütün diqqətimizi toplayıb qulaq asırıq. Amma bununla belə, bizim də bilmədiyimiz bir çox mətləblər var. "Yeni Müsavat" o yanlışları və onun doğru tərəflərini yazır.**

Çoxları deyir ki, gecə saatlarında yemək yemək insanın çəkisini artırır. Amma əgər gün ərzində yediyiniz yeməklərdəki kalori qədər kalori qəbul edirsizsə, həmin növdə yemək yeyirsizsə, çox çəki almayacaqsız. Ancaq "xırda-xuruş" yeməklər - çips, peçenye, çubuqlar insanın artıq çəki almasına səbəb olur.

Daha bir doğru bildiyimiz yanlış: Burun qanamasını dayandırmaq üçün başınızı geri atırsınız. Əslində isə belə deyil. Burun qanayanda başı önə əyməlisiniz və qanın fışqırmasını əngəlləmək üçün burun kəmərindən xəfifcə basdırmalısınız.



Bəzi qidalar cinsi istəkləri tətikləyə bilir. Bu da yanlışdır. Bəzi qidalar sizə güclü cinsi arzu hiss etdirəcək qədər fiziki reaksiyalara səbəb olmazlar. Sadəcə, psixoloji olaraq xatırladıcı funksiyanı icra edə bilərlər.

Lezvadan istifadə etmək tüklərin daha qalın çıxmasına səbəb olur - bu səhvin kökündə də göz aldanması dayanır. Belə ki, lezva istifadə etdiyiniz zaman tükü üzdən kəsirsiz. Bu səbəbdən də daha qalın görünə bilər, amma qalınlaşmaz.

Daha bir deyim odur ki, toksinlərinizi tərlə ata bilərsiniz. Tər su, sodium, xlor və potasiumdan ibarətdir. Tərlə bədəndən ancaq kiçik miqdarda toksin ata bilərsiniz.

Ənənəvi beş duyumunuz var. Beş duyumdan əlavə bir çox duyumunuz var. Bunlardan biri də "equilibrioception", yəni müvazinətdir.

Yaranı gecə üstü açıq qoymaq ən düzgünüdür. Açıq yaranı gecə hava alsın deyə açıq tutmaq onu quru atmosferlə təmasda qoyaraq hüceyrə ölümünə səbəb ola bilər.

Asqıranda ürəyinizin fəaliyyəti bir qədər fasilə verə bilər, deyirlər. Bu da yanlışdır. Ürəkvurma sürətiniz gülərkən və öskürərkən yavaşlaya bilər.

Əgər temperaturunuz yoxdursa, xəstəlik bulaşıcı deyil. Əslində isə qızdırmanın artması xəstə olmanızın və bunun yoluxucu olmasının etibarlı sübutlarından biri sayılır.

Buna baxmayaraq, temperatur olmadan da xəstəliyinizi yoluxucu hala gətirən bir çox şey var.

Qapısı bağlı bir otaqda kondisioneri açıq vəziyyətdə qoyub yatmaq ölümcüldür, söyləyirlər. Bu da doğru deyil.

Udulan saqqız mədəyə yapışmaz. Bədəninizdən bir-iki gündə atılacaq.

"Popkorn, quru yemiş və tum mədənizə yapışır". Bu da yanlışdır. Saqqız kimi bunlar da yapışmır. Hamısı zamanı gəlincə bədəndən çıxır.

İddia edilir ki, kişilər 7 saniyədən bir cinsi münasibəti düşünmədən yaşaya bilməzlər. Əslində bu məsələdə də bir yanlışlıq var. Hamımız kişilərin hər yeddi saniyədən bir cinsi münasibət düşünməsi barədə eşitdik. Amma bunu dəstəkləyəcək hər hansı bir araşdırma yoxdur. Ancaq kişilərin bunu qadınlardan daha çox düşündükləri dəqiqdir. Bununla bağlı elmi araşdırmalar var.

"Beyin gücümüzün yalnız yüzdə 10-undan istifadə edirik" kimi iddia var. Əslində isə belə deyil. Çünki beyin gücümüzün hamısından istifadə edirik.

"Gur işıqda yazmaq və ya oxumaq gözlərinizi xarab edə bilər". Düzdür, gur işıqda işləmək göz yorğunluğuna səbəb ola bilər. Ancaq gözlərinizə ziyan verməz. Bəlkə bir qədər başağrısına səbəb ola bilər.

Müəyyən diqqət sahəsi və fəaliyyətlərin beynin spesifik tərəflərini hərəkətə keçirdiyi doğrudur. Amma belə bir fəaliyyətin beynin digər tərəflərindən tamamilə müstəqil gerçəkləşdiyi doğru deyil. Bu, hər iki tərəf üçün də keçərlidir.

Nəfəs almağın yanlış forması yoxdur? Əslində var. Bir çoxumuz sinəmizdən nəfəs alırıq. Doğru nəfəs isə diafraqmadan alınır.

Sarı dişlər gigiyena yetərsizliyinin sübutu kimi təqdim olunur. Bu da yanlışdır. Rəng dəyişikliyi çox yaxşı baxılan dişlərdə də meydana gələ bilər. Uşaq vaxtı keçirilən hansısa ciddi xəstəlik, səkkiz yaşından öncə "antibiotik tetrasiklin"dən istifadə etmək və bunun kimi bir çox səbəb sarı dişləri yarada bilər.

"Oksigensiz qalanda qanınız mavi rəngdə olur". İnsan qanı damarın içində də, bayırında da qırmızıdır. Damarlarınız dərinizdə görünəndə bu, mavi rəngdə də görünə bilər. Amma içindəki qan qırmızı rənglidir.

Oksigenli su yaranı təmizləyirmi? Əslində isə bu, tam əksinədir. Çünki oksigenli su sağlam bakteriyaları öldürərək yaranı daha pis bir hala gətirə bilər. Yaranı sabun və ya adi su ilə yuyun.

Stressin yüksək təzyiqin başlıca səbəbi olduğu bildirilir. Xroniki yüksək təzyiq daha çox qidalanma, idman və siqaretlə əlaqədardır. Təbii ki, xroniki stress də qəlbiniz üçün zərərli ola bilər. Amma davamlı stressə məruz qalırsınızsa, buna bir çıxış yolu tapmalısınız.

"Hər birimiz ildə orta hesabla səkkiz hörümçək uduruq" əfsanəsinin necə yayıldığını bilməsək də, bu, doğru deyil.

"Əgər nəsə içəndə bir dəfə tualetə gedirsizsə, tez-tez tualetə getməyə başlayırsız". Bu da yanlışdır. Xalq arasında "möhürü qırmaq" deyə bir deyim var. Yəni bir dəfə ayaqyoluna getdinizsə, davamında daha tez-tez gedəcəksiz. Bu isə sadəcə, ayaqyoluna getmək üçün ərincəkliyinizin qırılması baxımından doğrudur.

Kök görmə qabiliyyətini gücləndirir.

A vitamini güclü bir görüş üçün önəmlidir və tək qaynağı da kök deyil. Bir çox tərəvəzlərin tərkibində A vitamini var. Məsələn, ciyər də çox gözəl bir qaynaqdır.

İddia olunur ki, dəri suyu əmdiyi üçün uzun müddət suyun altında qalanda büzüşür. Dəriniz, qan damarları dərinizin altında daraldığında büzüşür, suyu əmməyə çalışmaz. Teoriyalardan biri də odur ki, barmaqlarınız suyun altında büzüşürsə, bu, onun daha sağlam olduğunun sübutudur.

"Kilo almağınızın səbəbi həzminizin zəif olmasıdır". Bu da yanlışdır. Həzm (metabolizma) və çəki arasında hər hansı bir münasibət yoxdur. Həqiqət budur ki, çox zəif insanlar əsasən zəif metabolizmaya sahibdir. Çünki kalori yandırmaq üçün daha az əzələ kütləsinə sahibdilər.

"Qızdırmanız varkən yemək yeməməlisiniz". Bu da yanlışdır. Belə etsəniz, bədənin qızdırma ilə lazımi qədər enerjisi olmadan mübarizəsinə yol açmış olursunuz.

"Dili fırlada bilmək genetik xüsusiyyətdir". Xeyr, bunu sonradan da öyrənmək mümkündür.

"Apendesit heç bir işə yaramaz" iddiası da doğru deyil. Apendesit immunitetinizlə əl-ələ çalışır.

"İdman nə qədər uzun sürərsə, bir o qədər yaxşıdır". Bu da doğru deyil. İdman boyunca bir sürət yaradırsınız və sonunda əzələləriniz çalışmamış ola bilər. Ən yaxşısı yavaş-yavaş hərəkətlər etməkdir.

Yumurta ürək sağlamlığına zərərlidir? Yumurtanın tərkibində kolesterol olsa da, bədənin kolesterol səviyyəsini yüksəltməz. Bir çox gözəl qida maddəsini özündə birləşdirir. Amma gündə bir dəfə yeməniz yetərlidir.

"İki yaşına qədər bütün beyin hüceyrələri inkişaf edir" deyimi ilə də rastlaşırıq. Əslində inkişaf etmiş fərd olaraq da yeni beyin hüceyrələri inkişaf etdirə bilərsiniz. Buna 'neorojenez' deyilir.

"Düz dabanlı insanlar daha çox travma alırlar". Aparılan araşdırmalar isə düz dabanlı insanların bu məsələdə dezavantajlı olmadığını göstərir.

"Zəhərli sarmaşıq yoluxdurucudur". Zəhərli sarmaşıq qaşıntıya səbəb ola bilər, amma bulaşıcı deyildir.

"Saç və dırnaq insan öləndən sonra da uzanmağa davam edir". Əslində yanlışdır. Saç və dırnaqlar digər hər şeylə bərabər vaxtda böyüməyi dayandırır. Ölümdən sonra dərinin susuz qalması səbəbi ilə dəri içəri çəkildiyindən daha uzanmış kimi görünə bilər.

**Sonda... Gördüyünüz kimi, yetərincə fərqli məlumatlardır. Bunları doğru bilmək bir çox hallarda insanların həyatını da xilas edə bilər. Stereotiplərə inanmayaq, gerçəklər hər zaman daha gözəldir.**

❑ **Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**Bu həftə ATƏT-in Minsk Qrupunun həmsədrləri bölgəyə növbəti səfər edəcəklər. Öncə İrəvana və Xankəndinə baş çəkəcək vasitəçilər daha sonra Bakıya gələcəklər. Bəs həmsədrlərin budəfəki səfəri əvvəlkilərdən nəylə fərqlənəcəkmi? Suala cavab verməkin üçün öncə Dağlıq Qarabağ münaqişəsi zonasında son vaxtlar yaranmış təhlükəli durumu ciddiyə almaq lazım gəlir.**

Söhbət ötən ilin iyunundan, faktiki, dayanmış sülh danışıqlarının bərpası zəruriliyindən gedir. Çünki diplomatik proses ləngidikcə müharibə ehtimalı da artmaqdadır. Üstəlik, indi hərbi əməliyyatlar üçün ən əlverişli dövr hesab edilir.

Siyasi təhlilçilər də bu amili ilk növbədə nəzərə almağın və həmsədrlərin qarşıdakı səfərini öncəliklə bu kontekstdə dəyərləndirməyin tərəfdarıdır. Eyni zamanda məsələyə pessimist yanaşan ekspertlər də var.

*****

"Dağlıq Qarabağ zonasında nə baş verdiyi prinsipcə Minsk Qrupunun, daha dəqiqi, onun konkret üzvlərinin vecinə deyil". Musavat.com-un məlumatına görə, bu barədə xarici siyasət, müdafiə və təhlükəsizlik sahəsi üzrə **rusiyalı tanınmış ekspert Qriqori Trofimçuk** rusdilli vesti.az saytına açıqlamasında deyib.

**Onun sözlərinə görə, hazırda münaqişə zonasında nisbi sakitlikdən danışmaq da doğru deyil:** "Bu, sakitlik deyil, bu, sadəcə, olaraq və əfsus ki, həmişəki kimi, tam olaraq məsələ ilə bağlı ideya yoxluğudur - hər şey necəsə özü-özünə yoluna qoyulacaq ümidi ilə yoğrulmuş bir ideya boşluğudur. Lakin belə bir "qarışıq" durum həmişə radikal effekt verir. İrəvana vaxtı uzatmaq lazım deyil. Ona indiki situasiya və ərazilərlə bağlı vəziyyət sərf edir. Belə görünür ki, predmetli danışıqlara və ən başlıcası, son nəticəyə yalnız Bakının ehtiyacı var. Öz növbəsində Moskvaya müharibə yox, sülh sərf edir. Hazırda Kremlin fikrincə, müharibə yoxdur. Odur ki, hər şey çox sadə və aydındır. Kimlərəsə elə gəlir ki, 2016-nın aprel insidenti etibarlı şəkildə ölgünləşdirilib. Ancaq bu, heç də belə deyil. Bu, çox təhlükəli aldanışdır".

**Həmsədrlərin müharibəni önləmək məsələsində passivliyinin səbəbinə gəlincə, politoloq qeyd edib:** "Axı onların nə özləri, nə də qohumları münaqişə zonasında yaşamır. Öz vasitəçilik fəaliyyətlərinə görə pulu isə vaxtlı-vaxtında alırlar. Onlar bu məsələni müzakirə eləmək üçün harasa gedəndə gözəl mehmanxanalarda yerləşdirilir, yaxşı qidalanırlar. Necə düşünürsünüz, belə bir iş bölgüsündə harasa tələsməyə dəyərmi? Əgər onların əməkhaqqısı üzərilərinə qoyulan problemin həllindən birbaşa asılı olsaydı, bax onda qat-qat fəal işləməli olardılar".

**Rusiyalı analitik daha sonra deyib:** "Konfliktin belə əbədi formatı həmsədrləri artıq ona görə qane edir ki, bu cür "vasitəçilik" hesabına əbədi şəkildə dolanmaq olar - özü də diplomatik pensiyada ola-ola. Odur ki, gəlin hər şeyi öz adı ilə çağıraq. Ancaq belə görünür ki, belə nisbət Bakını da qane edir - madam ki, mənim təklifimə heç cür reaksiya verilmədi. Mən təklif eləmişdim ki, heç olmasa bu qrupun çərçivəsi ora praktik ekspertlərin daxil edilməsi hesabına genişlənsin - biz hələ bu orqanın üzvlərinin tam dəyişdirilməsini demirik. Mən ən müxtəlif müzakirə meydançalarında bu haqda dəfələrlə danışmışam. Amma heç nə dəyişmir".

**Sonda rusiyalı ekspert Dağlıq Qarabağda müharibə ehtimalına da münasibətini bildirib:** "Müharibənin qızışma ehtimalını 80:20-yə nisbətində qiymətləndirirəm - 2016-ci ilin aprelindəki toqquşmadan sonra yaşanmış 2017-nin fevral və 2017-nin may insidentlərini də nəzərə almaqla. Fikrimcə, danışıqlar prosesi hətta 2014-cü ilin avqustuna olan vəziyyətə belə qayıtmadı".

*****

Gerçəkdən də belədir. Təəssüf ki, 2016-cı ilin 4 günlük aprel müharibəsindən sonra da sülh danışıqlarının intensivləşəcəyinə və nizamlama prosesində ciddi dönüş yaranacağına olan ümidlər özünü doğrultmadı. Bu da müstəsna olaraq, Rusiya başda olmaqla, üç vasitəçi dövlətin özlərini situasiyaya adekvat aparmaması, işğalçı ilə nəhayət ki, işğalçı kimi davranmaq istəməməsi ilə bağlıdır.

Keçən bir ildən çox zaman müddətində Azərbaycan və Ermənistan prezidentlərinin iştirakı ilə vur-tut iki görüş - Vyana və Sankt-Peterburq təmasları təşkil olundu ki, bu da bir abzas yuxarıda qeyd etdiyimiz səbəbdən heç bir irəliləyişə, dönüşə gətirmədi. Gətirə də bilməzdi. Əksinə, indi bəlli olur ki, belə yanaşmalar, danışıqlar görüntüsü yaratmaq təcavüzkarın daha təxribatçı və yeni müharibə riskini artıran mövqe tutmasına zəmin yaradıb.

Odur ki, belədə məntiqi sual ortaya çıxır ki, görəsən, vasitəçilər bu yolla nəyə vasitə olmaq istəyirlər - həqiqətən də Dağlıq Qarabağ məsələsində ədalətli sülhə, yoxsa savaşa?



# Vasitəçilər nəyə vəsilə olmaq istəyirlər - sülhə, yoxsa savaşa?..

## ATƏT-in Minsk Qrupu ilə bağlı orijinal təklif gəldi: rusiyalı tanınmış analitik qrupu təcrübəli ekspertlər hesabına genişləndirməyə çağırır; **Qriqori Trofimçuk:** "Müharibənin qızışma ehtimalı 80:20 nisbətindədir..."




Bu suala əhatəli, dolğun cavab verilməyincə, lap dəqiqi, həmsədrlərin beynəlxalq hüquqa söykənən vasitəçiliyi özünü göstərməyincə, aydındır ki, bölgəyə səfərlərin də heç bir önəmi olmayacaq. Daha doğrusu, belə turist ziyarətləri ən çox status-kvonun saxlanmasına, işğal rejiminin davam eləməsinə çalışan Ermənistanın əlinə işləyəcək.

*****

Bu arada Türkiyədə fəaliyyət göstərən Əsassız Erməni İddiaları ilə Beynəlxalq Mübarizə Dərnəyinin (ASİMDER) başqanı Göksel Gülbey sensasion bəyanatla çıxış edərək deyib ki, Ermənistan Əfqanıstandan 8 min muzdlu gətirərək Qarabağda yerləşdirib (virtualaz.org). Bu haqda xəbər verən timetürk.com saytı bildirir ki, Göksel Gelbey Ermənistanın əfqan muzdlularını ötən Iki aprel döyüşlərindən sonra gətirdiyini iddia edib.

**Onun sözlərinə görə, ötən ilin aprelində baş vermiş döyüşlər zamanı Azərbaycanın güclü ordusu qarşısında əzilən və işğal etdiyi ərazilərin bir hissəsini əldən verən Ermənistan çoxlu itkilər verib.** "Buna görə erməni ailələri övladlarını Qarabağa hərbi xidmətə göndərməkdən imtina etməyə başladılar. Ermənistan bu problemi həll etmək üçün pulla və bəzi şirnikləndirici vədlər verməklə 8 min əfqan əsilli muzdlu əsgəri gətirərək onlara hərbi təlim keçməyə başlayıb. Bu muzdlu əsgərlərə 5 il xidmət etmək üçün 3 min dollar maaş və müddətin sonunda Ermənistan vətəndaşlığı, Avropa vizası ilə təmin olunmaq vədləri verilib" - ASİMDER başqanı deyib.

Onun sözlərinə görə, "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin öz ölkələrini qorumağa əsgərləri belə yoxdur. Bu səbəbdən Ermənistan Əfqanıstandakı yorucu savaşdan bezərək rahat həyat qurmağa can atan əfqanların bu istəklərindən yararlanaraq müsəlman milləti digər müsəlman millətə qarşı savaşmağa məcbur edir.

"Bunu İngiltərə 1915-ci ildə Çanakkalada müsəlman türk millətinə qarşı Afrikanın müsəlman ölkələrindən müstəmləkə altında əzilən insanları gətirib savaşdırmaqla edib. Eyni oyunu yenə də xaçpərəstlər oynayır. Bu oyunun içində inşallah ki, İranın olmadığına ümid edirik. Çünki əfqanların İran üzərindən Ermənistana keçdiyi məlumdur. Muzdlu əfqan əsgərlərin Ermənistana keçdikləri haqda İran vətəndaşlarının istifadə etdiyi sosial media qruplarındakı yazışmalarda bəhs olunur" - ASİMDER başqanı qeyd edib. Daha sonra Göksel Gülbey İranı müsəlmanların qanını tökmək üçün Ermənistana gedən muzdlu əfqanların keçidinə icazə verməməyə çağırıb. Onun sözlərinə görə, Ermənistanın bu hərəkəti Türkiyəni də diqqətli olmağa məcbur edir. Çünki həmin muzdlu əsgərlərin nə vaxtsa Türkiyəyə qarşı istifadəsi də mümkündür.

*****

İşğalçı Ermənistanın öz ordusu üçün çağırışçı problemi yaşadığı əslində təzə məsələ deyil. Ancaq çətin ki, təcavüzkar tərəf hansısa muzdlular və ya terrorçular hesabına Azərbaycan ərazilərinin işğalda saxlanmasını davam etdirə bilsinlər. Bunun da başlıca səbəbi odur ki, Azərbaycan artıq kifayət qədər müasir, qabaqcıl hərbi texnologiyalarla təmin edilmiş və döyüş qabiliyyəti yüksək olan silahlı qüvvələrə malikdir. Ötən ilin aprel olayları bunu əyani sübut elədi. İndi 90-cı illər deyil və işğalçı heç bir halda layiqli cəzadan qaça bilməyəcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

**Mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclu şəxslərin axtarışının mərkəzləşdirilmiş uçotu ilə bağlı fəaliyyətin yaxşılaşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin (DİN) rəsmi veb-saytında yeni informasiya resursu yaradılıb.**

Nazirlikdən APA-ya bildirilib ki, bu ilin iyunundan etibarən istifadəyə verilmiş interaktiv pəncərə vasitəsilə vətəndaşlar mülki-hüquqi öhdəliklərin icrasından yayınan borclu şəxs kimi axtarışda, habelə sərhədkeçməyə məhdudiyyət siyahılarında adlarının olub-olmaması barədə məlumatları əldə edə bilərlər.

Bunun üçün DİN-in mia.gov.az (http://mia.gov.az/?/content/liability) saytına daxil olmaqla, qeyd edilən elektron xidməti *(Ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış borclular barədə məlumatlar)* seçərək pəncərələrdəki müvafiq şəxsi məlumatları doldurub təsdiqləməklə lazımi informasiyanı almaq mümkündür.

İndiyə qədər bir sıra tanınmış və ya sıravi vətəndaşların ölkədən çıxmasına qadağa qoyulub. Məsələn, ötən ilin statistikasına görə, vergi borcuna görə ölkədən getmə hüququ məhdudlaşdırılmış fiziki şəxslərin siyahısında 423, vergi borcuna görə ölkədən getmə hüququ məhdudlaşdırılmış hüquqi şəxslərin icra orqanları rəhbərlərinin siyahısında isə 727 nəfərin adı qeyd olunub. 2014-cü ildə isə bu rəqəm 2640 nəfər olub.

Bəs kimlər ölkədən çıxa bilməzlər və ölkədən çıxmaq hansı hallarda qadağan olunur?

# Ölkədən çıxışına qadağa qoyulan şəxslər kimlərdir?

## Hüquqşünas: "İctimaiyyətdə ölkədən çıxışına qadası olan şəxslər daha çox jurnalistlərdir"



**"Yeni Müsavat"a ölkədən çıxışına qadağa qoyulan hüquqşünas (QHT rəhbəri) Əsabəli Mustafayev bildirib ki, bu məsələlər "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" qanun və Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Hüquqşünas qeyd edib ki, ictimai şəxslərdən daha çox ölkədən çıxışına qadağa qoyulanlar jurnalistlərdir:** "Miqrasiya Məcəlləsində qeyd olunur ki, Azərbaycan vətəndaşının dövlət sərhədinin buraxılış məntəqələrindən keçərək sərbəst surətdə ölkədən getmək və ölkəyə gəlmək hüququ var. Bir qayda olaraq, vətəndaş ölkədən getmək və ölkəyə gəlmək hüququndan məhrum edilə bilməz. Lakin qanunla nəzərdə tutulmuş hallar istisnadır. Onlar aşağıdakılardır:

*- Tutulduqda və ya barəsində hər hansı qətimkan tədbiri seçildikdə - azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək;*

*- Məhkum edildikdə - Cinayət Məcəlləsi ilə müəyyən edilmiş əsas cəzasını çəkib qurtaranadək və ya, cəzadan azad edilənədək;*

*- barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə - tibbi xarakterli məcburi tədbirlərin tətbiqi ləğv edilənədək;*

*- Şərti məhkum edildikdə və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edildikdə - müvafiq olaraq sınaq müddəti və ya cəzanın çəkilməmiş hissəsi başa çatanadək və ya şərti məhkumetmə, yaxud üzərinə qoyulmuş vəzifələr vaxtından əvvəl tamamilə ləğv edilənədək;*

*- Müddətli həqiqi hərbi xidmətə çağırıldıqda - müddətli həqiqi hərbi xidmət keçənədək və ya qanuna uyğun olaraq ondan azad edilənədək;*

*- Məhkəmə qərarı əsasında verilmiş icra sənədinin könüllü icra üçün müəyyən olunmuş vaxtda üzrsüz səbəbdən icra edilməməsinə görə vətəndaşın ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda - məhdudlaşdırmanın götürülməsi barədə qərar qəbul edilənədək;*

- Beynəlxalq tibbi sanitariya qaydalarına və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq profilaktik peyvəndlər tələb olunan ölkələrə gediş-gəliş zamanı - profilaktik peyvəndlər edilənədək".

**Ə. Mustafayev ölkədən çıxışına qadağa qoyulan bəzi şəxslərin də adlarını sadalayıb:**

"İqtisadçı Natiq Cəfərlinin qadağası var. Onun cinayət işinin tərkibində, ümumiyyətlə, yaşayış ərazisini tərk etmək qadağası qoyulub. Yəni o, heç Bakıdan da kənara çıxa bilməz, nəinki ölkədən. Mənim özümün də QHT rəhbəri kimi qadağam var. Eyni zamanda meydan.tv və "Azadlıq" qəzetinin bəzi jurnalistlərinin ölkədən çıxışına qadağa qoyulub. Bildiyim qədərilə onların sayı 7-8 nəfərdir. Yəni daha çox ölkədən çıxışına qadağa qoyulan şəxslər jurnalistlərdir. Bundan başqa isə bəzi şəxslər də var ki, onların xarici pasportları olmadığı üçün xaricə gedə bilməzlər".

❑ Əli RAİS



# İcra başçısı qəzada ölən qardaşından danışdı

## Lütvəli Babayev: "Həkim deyib ki, sənə maşın sürmək olmaz, həyati təhlükəsi var"

**Zərdab rayonunun icra başçısı Lütvəli Babayevin qardaşı Əliağa Babayev Rusiyada yol qəzasında həyatını itirib. BakuPost.az xəbər verir ki, Ə.Babayev Novosibirsk şəhərindən 50 kilometr aralıda avtomobil qəzası törədib və dünyasını dəyişib. Məlumata görə, o, Rusiyada bizneslə məşğul olub. 1978-ci ildən Novosibirskdə yaşayan Əliağa Babayevin cənazəsi iyunun 7-də Mingəçevirə gətiriləcək.**

**Lütvəli Babayev** aznews.az-a açıqlamasında mərhum qardaşı haqda danışıb: "Öz maşınında qəzaya uğrayıb. Uzun zamandır ki, onun ürəyi xəstə idi, iki stend qoyulub. Səhər tezdən ürəyinin ağrısı tutub, həkimə gedib. Həkim deyib ki, sənə maşın sürmək olmaz, həyati təhlükəsi var. Əliağa da baxmayıb, oturub maşına, bax beləcə həyatını itirib".

Lütfəli Babayev onu da qeyd edib, mərhum qardaşı iyunun 7-də Rusiyadan Mingəçevir şəhərinə gətiriləcək:

"Gözləmədiyim faciə, hər halda, çox çətindir. Əliağa Rusiyada böyük hörmət sahibi idi. Rusiya prezidenti Vladimir Putin ona orden verib".

Yada salaq ki, ötən il icra başçısının bacısı və nəvələrinin olduğu avtomobil Ucar rayonu ərazisində yol qəzası tödərib. "Toyota" markalı avtomobillə törədilən qəzada başçının bacısı Kamilə Babayeva ilə yanaşı, yeznəsi və qızı olub. Yaralılar xüsusi vertolyotla Bakıya gətiriliblər.

İcra başçısının Babaş Babayev adlı qardaşı isə 15 il əvvəl Ağsu aşırımında baş verən ağır qəzada ölüb.

Onun digər qardaşı Hacı Xanəli Babayev isə Qafqaz Müsəlmanları İdarəsinin Şirvan bölgəsi üzrə qazısı, Mingəçevir şəhərinin axundudur.

# Bakıda sevgilisi tərəfindən öldürülən qızın ailəsi axtarılır

**Bir neçə gün əvvəl Bakı şəhər Xətai rayonu NZS qəsəbəsində öldürülən qadının şəxsiyyətini müəyyənləşdirmək hələ də mümkün olmayıb. Lent.az-ın əldə etdiyi məlumata görə, iyunun 3-də 42 yaşlı Vorobyov Sergey Nikaloyeviçin evində meyiti tapılan 30-35 yaşlı həmin qadının adının Arzu olduğu bildirilsə də, onun şəxsiyyətini tam müəyyənləşdirmək alınmayıb.**

Bildirilir ki, S.Vorobyov həmin qadınla mayın əvvəlində şəhərin mərkəzindəki barlardan birində tanış olub. Həmin vaxtdan sonra onlar Sergeyin NZS-dəki evində yaşamağa başlayıblar. S.Vorabyov deyib ki, qadın özünü ona Arzu adı ilə təqdim edib və Türkmənistanda doğulduğunu, atasının Sumqayıtda yaşadığını, 15 il əvvəl ailə qurduğunu, uğursuz olan bu izdivacdan 12-13 yaşlı oğlunun olduğunu deyib. Subay



olan və tək yaşayan S.Vorabyov öldürdüyü qadınla bağlı başqa informasiyaya malik olmadığını vurğulayıb.

Hadisənin necə baş verdiyinə gəlincə, tək və sərbəst həyat tərzi sürən Sergeylə bir aya yaxın eyni evdə yaşayan qadın onun sonrakı rəftarlarından narazı qalıb və cütlük arasında qısqanclıq münaqişələri yaranıb. Mayın 31-də onlar arasında dava-dalaş olub və qadın Sergeyə bıçaqla hücum edib. Sevgilisinin əlindən bıçağı alan 42 yaşlı Sergey bir bıçaq zərbəsi ilə onu öldürüb. Qadının meyiti isə evdən iyunun 3-də tapılıb. S.Vorabyov ilkin ifadəsində qadının yıxılaraq xəsarət alması və boynunun sınması nəticəsində öldüyünü desə də, sonradan yalan danışdığı üzə çıxıb.

Qeyd edək ki, yaxın qohumları və ailə üzvləri tapılmadığından sevgilisi tərəfindən öldürülən qadın hələlik dəfn edilməyib.

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017

# Altıbarmaqlılar - onların bizdən fərqi nədir?

## İsmayıllı dağlarındakı altıqanadlı Şeşpər baba dərgahında salınan malakan kəndinin sirri...

**Rusiya malakanları altıqanadlı Serafim mələyini dünyanın dörd tərəfində axtara-axtara axırda bir gün gəlib çıxırlar bizim gözəl Azərbaycana. O ziyarətgaha fikir verirlər, bu ziyarətgaha baxırlar. Axır bütün diqqətlərini cəmləyirlər İsmayıllı dağlarındakı altıqanadlı Şeşpər baba dərgahında. Qərara gəlirlər bəs altıqanadlı Serafimin əsl yeri... bağışlayın əsl göyü, səması elə bax, bu müqəddəs ünvandadır. Şələ-şülələrini soyuq Rusiyadan yığıb-yığışdıraraq köçüb gəlirlər füsunkar mənzərəli İsmayıllıya. Burda məşhur İvanovka kəndini salıb ölkəmizdə kök atır-**

Təəccüblənməyin, bu ərazidəki Qəbələ RLS də müəyyən mənada sanki altıqanadlıdır. Hər üç qülləsinin başını iki buynuzlu ötürücü antena bəzəyir axı. Cəmlə bu rəqəmləri. Yenə altı rəqəmiylə, altıqanadlı mələklərlə, altı qanadlı hərbi raketlərlə tək-tənha qalıb azca karıxacaqsan.

**ŞEŞPƏR BABA OCAĞI:** İsmayıllı dağlarında yerləşən bu müalicəvi pirdə 6 rəqəmi xüsusən vurğulanır. Zəvvarlar, altı nəfərlik dəstələr halında ziyarətgaha buraxılırlar. Altı dəfə dönürlər Şeşpər baba məzarının başına. Ziyarətdən sonra zəvvarlara adətən 6 konfet hədiyyə edilir. Ziyarətgahda 6 müqəddəs məzar, 6 müqəddəs ağac da mövcuddur. Qurbanlıq heyvan burda hər yerdə olduğu kimi, yeddi deyil, altı tikəyə parçalanır. İçalatı atılır hər qapıdakı 6 vəhşi köpəyə.

Ziyarətgahla az-çox tanışlıqdan sonra adama elə gəlir ki, nə vaxtsa burda yadplanetlilər qəzaya uğrayıb torpağa tapşırılıblar. Sonra üzərində ziyarətgah inşa edilib. "Şeşpər" kəlməsindən də göründüyü kimi, bu yadplanetlilər bizim kimi beş barmaqlı yox... altı barmaqlı olublar. Xalq altıbarmaqlı insanlarla altı qanadlı mələklər, yaxud yadplanetlilər arasında heç vaxt fərq qoymayıb. Bir gözlə baxıb bütün bu möcüzələrə.

Yadplanetlilərin altıbarmaqlı olma faktı havadan gəlmə boş söhbət deyil. Əllərdə bu məlumatları təsdiqləyən kifayət dərəcə ciddi məlumatlar var.

**ROZUEL QƏZASI (ingiliscə "Roswell UFO incident"): 1947-ci ilin iyul ayında, ABŞ-ın Nyu-Meksika ştatı ərazisində, Rozuel hərbi bazası yaxınlığında naməlum uçan obyekt (UNO) qəzaya uğrayır. Yerli fermer Mark Breyzel sonralar bu barədə ABŞ mətbuatına diqqət edin nələr söyləyib:** "Gecə yarısı yaşadığımız evi elə biləsən şimşək vurdu. Sonra naməlum parıltı bir an gözlərimizi kor etdi. Hiss etdim bütün bunlar nəticəsiz, itkisiz ötüşməyəcək. Ağzım falmış - səhər çağı gördüm qoyunlarımın sayı xeyli azalıb. Əndişələndim. Qoyunları axtara-axtara gəlib yetişdim bomboş bir əraziyə. Burda sanki UNO qəzaya uğramışdı. Saysız qəlpələri ətrafa səpələnmişdi. Bəziləri həcmcə böyükdü, digərləri xırda. Üzərlərində elə biləsən çin ieroqlifləriylə nəsə yazılmışdı. Öz "Cip"imə bu qənimətləri yükləyib qayıtdım fermama. Qonşularım axşam başıma yığılıb mənə dedilər bəs gərək mütləq yerli radioların birinə bu tapıntılar haqda müsahibə verəm. Məslədətlərə əməl etdim. Sabahısı gün, iyulun 8-də Rozuelə gedib orda FM dalğasında işləyən bir radioya bildiklərimi danışdım. Qəfil başımızın üstünü hərbçilər, əsgərlər kəsdirdi. Veriliş yarıdaca dayandırıldı".

**YADPLANETLİ CƏSƏDLƏRİ:** Sabahısı gün əyalət qəzeti "Roswell Daily Record" də bu mövzudan kənarda qalmaq istəmir. Əhvalatı olduğu kimi öz səhifələrinə çıxarır. Yerli hərbi bazadakı zabitlər də tapıntı ilə əlaqədar öz izahlarını mətbuata ötürürlər. İctimaiyyət üçün buraxılmış o vaxtkı press-relizi indi həyəcansız oxumaq mümkün deyil. Digər şahidlər israr edirdilər ki, UNO-nun yaxınlığında iki, yaxud üç yadplanetli cəsədi varmış. Cəsədlərin birində həyat əlamətləri hələ sönməyibmiş - "Mən meyitlərə lap yaxınlaşdım. Yadplanetlilərin başı yup-yumru, özü də tam saçsız-tüksüzdü. Bədənləri ilə nisbətdə bu başlar həcmcə çox böyük göründü mənə. Cıqqılı gözləri qapaqsız idi. Geyimləri düyməsiz, qayışsız".

Vaxtilə bizim Şeşpər baba ziyarətgahı ərazisində də bax bu cür uçan naməlum obyekt qəzaya uğrayıb yəqin ki. Camaatı eyni oxşar şəkildə xeyli həyəcanlandırıb. Cəsədlərin altıbarmaqlı olması xalq yaddaşına silinməz iz qoyub o zaman. Hadisə elə bax bu "Şeşpər baba" adı ilə xatirələrdə kodlaşdırılıb.

**MÜHÜM NÜANS:** Qəzaya uğramış uçan boşqabın altıkünclü olması alimləri əvvəlcə bir o qədər də düşündürmür. Ancaq tezliklə bilinəndə ki, bəs burda həlak olmuş yadplanetlilər də altıbarmaqlıdır... Həə, alimlərin qaşları çatılır. Başda doktor Bronk olmaqla həkim tədqiqatçılar fikrə dalıb öz aralarındakı altıbarmaqlılara tərs-tərs baxmağa başlayırlar. 30 noyabr 1947-ci il tarixi ilə işarələnmiş bu tibbi müayinənin nəticələrini indi də həyəcansız oxumaq mümkün deyil: "İnsana bənzər bu canlılar bizə oxşayır, bəli, lakin onlar təkamülün tamam başqa xətti üzrə inkişaf ediblər. Belələrini "Extraterrestrial Biological Entities" adlandırmaq, bizcə daha düzgün olar".















**QƏZANIN VAHİMƏLİ MÜQƏDDİMƏSİ.** Zaman ötdükcə, Rozuell hadisəsi bir çox gizlinlərə şaxələnir. Bəlli olur ki, qəzadan düz bir ay əvvəl buraxılmış poçt markalarının birində sabiq Amerika prezidenti Franklin Ruzveltin altıbarmaqlı şəkli çap edilib. Bəziləri indi bunu Rozuel fenomeninin gizli müqəddiməsi, mesajı da hesab edir. Lakin bu detal göstərir ki, Rozuell qəzası sırf kor təsadüfün nəticəsi deyil. Əvvəlcədən düşünülmüş planlı əməliyyatda xüsusi vacib halqadır.

1947-ci ilin sentyabrında bu vahiməli süjetə ölkə prezidenti Q. Trumenin imzası əlavə olunur. O, xüsusi bir qərarla 12 nəfərlik tam məxfi "Majestik-12" qurumunu yaradır. Mövzunu tapşırır bu 12 nəfərlik tam məxfi heyətə. Heyət üzvləri ixtiyarındakı 3, yaxud 4 yadplanetli cəsədini diqqətlə tədqiq edərək nəticələrini ictimaiyyətdən gizlədirlər. Qəzanın bütün izləri gözlərdən, arxivlərdən silinir. Şahidlərə əmr verilir ki, ağızlarını mumlasınlar. Guya aşkarlanan tapıntı UNO deyil, adidən də adi metereoloji alətdir...

Cəsədlər, patoloqoanatomlar tərəfindən öyrənilib "Tam məxfi!" qrifi altında lentə alınır. Bu lent uzun zaman məxfi arxivlərdə qalıb tozlanır. Yalnız 1996-cı ildə bu lentlərdən cəmi ikicə həqiqi kadr götürülüb salınır bir "dokumental" filmin tərkibinə. Digər bütün kadrlar isə saxtalaşdırılır. Soruşacaqsız "niyə?" Cavab verəcəm " iz azdırmaq üçün".

Mövzunu havadan asılı vəziyyətdə saxlamaq, görüntülərin həqiqiliyini, yaxud saxta olduğunu axıracan bildirməmək bu günün siyasi sifarişidir.

Yadplanetli mövzusu sadələrindən deyil. Burda həmişə xüsusi vacib şərtlər gözlənilir.

**POLİDAKTALİYA (yəni çox barmaqlılıq)** Qısası, belə çıxır ki, insan genetikasındakı altıbarmaqlılıq yadplanetli izidir. Azərbaycanda altıbarmaqlılar həmişə diqqət mərkəzində olub. Bəziləri onları hətta övliya, müqəddəs bilib. Altıbarmaqlı yadplanetlilərin ölkəmizdəki yadigarı bayaq yuxarıda söylədiyimiz kimi İsmayıllıdakı Şeşpər baba ziyarətgahıdır.

Altıbarmaqlılar həmişə öz orijinallığı, özünəməxsusluğu, fövqəl istedadlarıyla digərlərindən seçiliblər.

Belələrindən biri 16-cı əsrdə İngiltərənin taleyini dəyişmiş kraliça Anna Boleyn idi. Deyilənə görə, bu altıbarmaqlı xanımın həm də 32 yox, 33-cü dişi mövcudmuş. Fransada təhsil alıb vətəninə qayıdan Anna Boleyn tezliklə Kral 8-ci Henrixin sevgisini qazanır. Evli kral, xanımı Yekaterinadan ayrılmaq qərarına gəlsə də Roma papasından boşanma izni ala bilmir. Tərsliyinə salan kral bu dəfə özü bir növ Roma katolik kilsəsindən boşanır. Yeni anqlikan kilsəsi təsis edib ona özü başçılıq edir. Anna Boleynlə evlənib Roma papasına, bütün katolik dünyasının sinəsinə dağ çəkir. Nəticədə İngiltərə kimi bir ölkənin taleyini dəyişir. Belə əməllərə isə tarix göstərir, ancaq altıbarmaqlılar qadirdir.

**ALTIBARMAQLI STALİN:** Dünyada ad çıxarmış digər növbəti məşhur altıbarmaqlı isə yadda saxlayın, yoldaş İosif Stalindir. Yəni qədim tanrılara, yadplanetlilərə məxsus bu işarə ondan da yan ötməyib. Stalin sıradan bir dövlət xadimi deyildi-müharibə qalibiydi. Cahangirdi. Dünyanın, SSRİ xalqlarının, o cümlədən azərbaycanlıların taleyini dəyişmiş tarixi şəxsiyyət idi. Qədim vaxtlar belələrini adətən ilahiləşdirib növbəti Şeşpər baba elan edirdilər.

**ALTILIQ SAY SİSTEMİ:** Yadplanetlilərin bizdə qalan izi təkcə elə altıbarmaqlılarla kifayətlənmir. Altıbarmaqlılara əslində yadplanetlilərə məxsus altılıq say sistemindən biz indi də geniş istifadə edirik. Altibarmaqli say sistemi məişət məzmunlu deyil. Bu say sistemindən daha çox dini sahədə, habelə zaman-məkan anlayışlarımızda, yəni kosmosla əlaqələrimizdə geniş istifadə olunur. Allah dünyanı altı günə xəlq edib. İsanın 12 xavəri, cəfərilərin 12 imamı var. Bir gündə dörd altılıq, yəni 24 saat mövcuddur. Bir dəqiqə 60 saniyədən ibarətdir. İl 12 aydan ibarətdir və s.i və ilaxır.

**ALTIBARMAQLILARIN NƏRD OYUNU:** Hamınız nərd oyunu ilə yaxından tanışsınız. Bilirsiniz, bəs bu oyunda hər oyunçunun qarşısında altı xana var. Məncə, buna əsaslanaraq nərd oyununun bizə yadplanetlilərdən, yəni altıbarmaqlılardan yadigar qaldığını çəkinmədən söyləmək mümkündür.

Razısız mən deyənlə? Beləysə nərd oyununa bu gündən tamam başqa gözlə baxın. Daha məsuliyyətlə yanaşın bu oyuna. Altıqanadlı Serafim mələyinə, Şeşpər baba ruhuna bizləri bəlkə elə bu oyun yaxınlaşdırıb həmişə.

İnanaq gəlin bu fərziyəmə. Daxilimizdə, bədənimizdəki altıncı hissimizi gücləndirək. 1997-ci ildə Hollivud rejissoru Endryu Nikkol "Gattaka" adlı filmində altıbarmaqlı pianoçunun ifasında gözəl bir musiqi səsləndirib. Bir də qulaq asın bu musiqiyə.

Altıncı barmağın musiqidə həqiqətən çox özünəməxsus, incə, yadda qalan təkrarsız bir ahəngi var.

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017

# Çimərlik mövsümü başlayır- boğulmamaq üçün nə edək?

## Qadağanedici lövhələr müvafiq yerlərdə yerləşdirilib, üzmə sərhədləri müəyyənləşdirilib, amma..

**Havalar isindikcə dənizə getmək üçün tədarük görənlərin sayı artmaqdadır. Ancaq hər yay olduğu kimi bu yay da insanlar "hansı çimərliyə üz tutum ki, təhlükəsiz olsun" sualına cavab axtarmağa çalışır.**



Hər kəsə məlumdur ki, çimərlik mövsümü başlayan kimi bağırsaq çöpü kimi xəstəliklər və boğulma halları artır. Buna da səbəb insanların qadağan olunmuş çimərliklərə üz tutması və üzə bilməyən insanların suyun dərinliklərinə getməsidir. Dəniz suyu nümunələrinin monitorinqinin nəticələrinə görə, Abşeron yarımadasında Səbayel rayonunun Şıx çimərliyi və Qaradağ rayonunun Sahil çimərliyi çimmək üçün yararsız hesab olunub. Bunu bir neçə gün öncə Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitariya-gigiyena şöbəsinin müdiri Ziyəddin Kazımov "Report"a açıqlamasında deyib. Onun sözlərinə görə, digər çimərliklərdə dəniz suyu standartlara cavab verir: "İki rayonun ərazisindən götürülən nümunələrdə bağırsaq çöpləri həddən artıq çoxdur. Buna görə həmin ərazilərdə vətəndaşların çimməsi məqsədəuyğun sayılmır".

Maraqlıdır, dənizdə xəstəlik qapmamaq, boğulmamaq və günəşdə yanmamaq üçün nə etmək lazımdır?

Bəzən çirkli çimərliklərin siyahısı mətbuatda təqdim olunsa da, insanlar yenə də həmin çimərliklərə üz tuturlar. Nəticədə isə bədbəxt hadisələr baş verir. Qeyd edək ki, dənizin çirklənmə göstəricisi orada olan bağırsaq çöplərinin miqdarına görə müəyyən olunur. Ərazisində bağırsaq çöpləri norma daxilində olan çimərliklər vətəndaşların istirahəti üçün qənaətbəxş, normadan artıq olanlar isə təhlükəli hesab olunur. Bağırsaq çöpləri normanı aşan sularda çimmək mədə-bağırsaq xəstəliklərinə yol açır. Xəstəliyə meylli olan insanlar bu cür dənizdə çimərsə müxtəlif bağırsaq infeksiyaları, o cümlədən dizenteriya, vəba salmanilyoz, qarın yatalağı, virus hepatitlərinə yoluxurlar. Dənizdə boğulmalara gəlincə isə bu, sırf insanların məsuliyyətsizliyi ucbatından baş verir. Sadə, bəsit qaydalara əməl etməməklə insanlar öz həyatlarına son qoymuş olurlar. Mütəxəssislər hər çimərlik mövsümü başlayanda dəfələrlə deyiblər ki, çimərliyə gedərkən hava şəraiti nəzərə alınmalıdır. Hava küləkli, dumanlıdırsa, dənizə getmək məsləhət deyil. Ancaq biz yayda küləkli havalarda dənizə gedənlərin şahidi olmuşuq. Üzə bilmirsinizsə, sahildən çox uzaqlaşmamalısınız. Üzə bilənlərin isə sahilə perpendikulyar deyil, paralel üzmələri və qadağanedici nişanları keçməmələri tövsiyə olunur. Alkoqollu içki qəbul etmisinizsə, yağlı yemək yemisinizsə, dənizə girmək məsləhət deyil. Əgər səhhətinizlə bağlı müəyyən dərmanlar qəbul edirsinizsə, dənizə girmədən öncə bu dərmanları qəbul edib-etməməniz barədə həkiminizlə məsləhətləşməlisiniz. Çimərliyə getmək üçün sutkanın gündüz 12:00-16:00 saatlarında, eləcə də axşam saatlarında (görüntü məhdud olduğu zamanlarda) dənizdə çimmək (dəniz sahilində istirahət istisna olmaqla) həyat üçün təhlükəli ola bilər. Günəşin birbaşa düşən şüalarından qaçın. Günvurma halları ilə rastlaşmamaq üçün sutkanın gündüz 12:00-16:00 saatlarında çimərlikdə istirahətdən çəkinin. Gün vuran adamda halsızlıq, baş ağrısı, ürəkbulanma, daha ağır fəsadlar qıcolma, huşun itməsi kimi hallar müşahidə olunur. Belə hallarda ilk yardım olaraq həmin şəxs kölgəli yerdə uzanmalı, maye qəbul etməli, qollarının altına, sinəsinə və əllərinə soyuq kompres qoyulmalıdır. Tanımadığınız bir dənizdə təkbaşına üzməməli, dərinliyini bilmədiyiniz bir suya təpə üstü dalmamalı, yaxşı bir üzgüçü olduğunu sübut etməyə çalışmamalısınız. Bundan başqa, üzmək üçün istifadə edilən hava balonları, yastıqları və təkərlərinə elə də güvənmək olmaz. Çünki külək və axıntı onların botlarını açа və sizi axıntıya apara bilər ki, bu da boğulmanızla nəticələnə bilər. Su ilə bədəniniz arasındakı temperatur fərqi çox vaxt səhhətinizin pisləşməsinə, sizin də bundan panikaya düşüb boğulmanıza səbəb ola bilər. Buna görə də suya birdən-birə girmək olmaz. Tədricən girmək lazımdır. Boğulmaq üzrə olan və çırpınan birini gördüyünüz zaman əgər bu mövzuda təcrübəniz yoxdursa, onu qurtarmaq üçün dənizə girməyin. Çünki boğulan adam qurtulmaq üçün sizə tutunacaq və sizi də özü ilə dartacağı təqdirdə boğulmanıza səbəb ola bilər. Suda boğulan adama ilk tibbi yardım zamanında və doğru göstərilərsə, həyatını xilas etmək olar. Yadda saxlayın ki, suda boğulan adama öndən yaxınlaşmaq olmaz. Həmin adama arxadan yaxınlaşıb, başının suyun üstündə qalmasına nəzarət etməklə, qollarının altından tutub sahilə üzmək lazımdır. Sahildə dizlərinizi bükərək həmin adamı üzü üstə dizlərinizin üstünə uzatmalı, kürək nahiyəsindən basmalısınız. Unutmayın ki, həmin şəxsin udduğu suyun boşalmasını təmin etmək vacibdir. Lazım olarsa, ürək masajı və süni nəfəs də verilməlidir.

Qeyd edək ki, bu il çimərlik mövsümü iyunun 15-də açılacaq.

**Bu haqda modern.az-a Fövqəladə Hallar Nazirliyi (FHN) Dövlət Sularda Xilasetmə Xidmətinin ( DSXX) xilasetmə və dalğıc işləri üzrə şöbə müdiri Elsevər Həsənov məlumat verib. Qurum rəsmisi bildirib ki, Mədəniyyət və Turizm Nazirliyi tərəfindən verilən qərara əsasən, bu ildən etibarən çimərlik mövsümü iyunun 15-dən sentyabrın 15-dək vətəndaşların istifadəsində olacaq:** "Biz iyunun 1-dən etibarən gücləndirilmiş iş rejimində işləyirik. Qadağanedici, xəbərdaredici lövhələr müvafiq yerlərdə yerləşdirilib, üzmə sərhədləri müəyyənləşdirilib, şarlar qoyulub, suya baxış keçirilib. Həmçinin xilasedicilər iş başındadır. İyunun 1-dən etibarən dəniz kənarında dincəlməyə gələnlər var. Amma rəsmi açılış iyunun 15-də olacaq".

**❑ Günel MANAFLI**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- ✳ **Diaqnozu bilinməyən ağır hallar;**
- ✳ **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- ✳ **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- ✳ **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- ✳ **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- ✳ **Sidikdə və ya spermada qan;**
- ✳ **Spermanın azalması və itməsi;**
- ✳ **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- ✳ **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- ✳ **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- ✳ **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- ✳ **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- ✳ **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- ✳ **Sesksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- ✳ **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək,* ***(050) 213-88-05*** *nömrəsinə,* ***d-r Vaiz Səmədova*** *zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

**Elan**

**Türkiyə vətəndaşı Temur Fıratın adına olan müvəqqəti yaşayış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 121 (6735) 7 iyun 2017

# Dünyadan cənazə namazı qılınmadan köçən "müsəlmanlar"

**Britaniyanın 130-a yaxın imamı və ruhani xadimi "London-Bric" körpüsündə terror aktını törədənlərin yasında iştirak edib, cənazə namazı qılmaqdan imtina edib.**



"BBC Azərbaycan"nın məlumatına görə, dindarlar bildiriblər ki, bu adamlar üçün kimliyindən asılı olmayaraq hər bir müsəlmanın haqqı olan yas ayinlərini icra etməyəcəklər.

Onların sosial mediada dərc olunmuş bəyanatında deyilir ki, İslamın prinsiplərində yer alan bir sıra etik məqamlara görə terror aktını törətmiş adamların yasında ənənəvi ayinləri icra etməkdən imtina edirlər. Din adamları ölkənin başqa imamlarını da belə etməyə çağırıblar.

Londonun şərqindəki məsciddə çıxış edən ruhanilər deyiblər ki, onlar dinin hökmlərini saxtalaşdıranlarla bütün vasitələrlə mübarizə aparacaqlar.

Baş nazir Tereza Mey isə bəyanatında terrorçuların "həqiqi İslamı təhrif etdiklərini" demişdi.

Baş nazir bildirmişdi ki, Britaniyada yaşayan, lakin cəmiyyətə inteqrasiya olunmaq istəməyən müsəlman icmaları barədə "ciddi söhbətlər" olacaq...

Ümumiyyətlə, tarixə nəzər salsaq görərik ki, dünyanın müxtəlif ölkələrində terrorçuların, vətənə xəyanət edənlərin cənazələrinə qarşı oxşar davranışlar olub.

Məsələn, ötən ilin iyul ayında qardaş Türkiyədə həyata keçirilən dövlət çevrilişi cəhdi zamanı öldürülən hərbçilərin cənazə namazları qılınmadı. Bu barədə Türkiyə Dini İşlər İdarəsindən edilən açıqlamada məlumat verilmişdi. Bəzi ölkələrdə isə cənazə xidməti göstərən qurumlar terrorçuların meyitlərini aparmaq üçün maşın belə verməkdən imtina ediblər...

**Təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev "Yeni Müsavat"a bildirib ki, hər bir məsələnin üç cür həll yolu var; Allah yolu, qanuni və oğru yolu:** "Baş verən proseslərdə birinci məsələ dövlətin qanunveriliyi olmalıdır. Tutaq ki, terrorçu haradasa terror hadisəsi törədibsə, ilk növbədə hadisənin detallarına varmaq lazımdır ki, o, nə üçün bu yolun yolçusu olub. Bəlkə də hansısa əqidənin qulluqçusudur və kiməsə onun davranışları xoş deyilsə də, öz ətrafındakılar bu fikirdə deyillər. Yəni hər məsələyə fərdi baxımdan yanaşmaq lazımdır. Son zamanlar baş verən hadisələrdə deyirlər ki, əgər kimsə vətən xainidirsə, o, gərək qəbiristanlıqda dəfn olunmasın. Hesab edirəm ki, proseslərə insani tərəfdən baxmaq daha doğru olar. Adam dünyaya gələndə terrorçu kimi gəlmir. Demək ki, onu bu işlərə cəlb edənlər var. Dünya praktikasında neçə illərdən bəri türmədən çıxan bəzi şəxslərə də uzun müddət başdaşı qoymayıblar və yaxud da müxtəlif cür addımlar atıblar. Konkret fikir bildirmək olmaz ki, kimsə terror törədibsə, onu dəfn etmək olmaz. Hər şeyi dinə, məzhəbə tərəf yönəltmək doğru hal deyil. Düşünürəm ki, bu kimi yanaşmalar insanları bölmək, fərqləndirmək deməkdir. Necə olur ki, özlərini "qanuni oğru" adlandırıb cinayət törədənlərin, kiməsə böyük zərər verənlərin cənazələrinə fərqli davranılmır. Onlar xalq, dövlət üçün nə ediblər ki? Əgər belədirsə, saatda 200-lə avtomobil sürüb, kiminsə ölümünə səbəb olana da cənazə namazı qılınmasın. İlk növbədə dövlətin qanunları əsas götürülməlidir. Bütün detallar bu məsələdə nəzərə alınmalıdır. Nəsil, kök məsələsi var. Atası kiminsə ucbatından xalq düşməni olubsa, onun balalarına təzyiq etmək olmaz".



**Arzu Nağıyev:**
"Hər şeyi dinə, məzhəbə tərəf yönəltmək doğru hal deyil"



**Kənan Röşvənoğlu:**
"Müsəlmanlar həmin şəxsləri bir növ özlərindən bilmirlər"

**Məsələnin dini tərəfləri barəsində danışan "Yeni Müsavat"ın dini yazarı Kənan Rövşənoğlu bildirib ki, dinə görə müsəlmanın dəfnində namaz qılınması vacibdir:**

"Məsələ ondadır ki, günahsız insanları öldürənlərə, xalqa qarşı çıxanlara ölümlərindən sonra bu kimi cəzalar verilir. Bunun bir dini izahı yoxdur. Sadəcə olaraq, bu, toplumların, cəmiyyətlərin qisas hissləridir ki, bu cür formada cəsəddən sanki öz qisaslarını alırlar. Müsəlman olan üçün cənazə namazı önəmlidir. Ümumiyyətlə, hər bir müsəlman dünyadan köçərsə, vacib olan dörd əməl var. Bunlar meyitinin yuyulması, kəfənlənməsi, cənazə namazının qılınması və dəfn olunmasıdır. Sadaladığım şərtlər hər bir müsəlman üçün vacibdir. Hətta tanımadıqları adam olsa belə, müsəlmanlar hansısa müsəlman ölərsə, bu şərtləri etməlidirlər. Bəzi şeylər şərtlərə görə dəyişsə də, ümumi məsələ söylədiklərimdir. Ancaq bəzən bu cür terrorçulara, bilərəkdən insanlara qəsd edən şəxslərin cənazələrinə qarşı fərqli formada davranılır. Artıq müsəlman həmin hökmləri diqqətə almır. Məsələn, terrorçunu harasa atırlar, ona meyit namazı qılmırlar. Yəni bir növ həmin şəxsi müsəlman kimi bilmirlər. Çünki müsəlman olmağın şərti namaz qılmaqdan, oruc tutmaqdan daha çox, insanlıq haqqına riayət etmək, Allahın yaratdıqlarına qarşı rəhimli olmaqdır. Namaz Allah və insan arasındakı məsələdirsə, müsəlman üzərində əsas məsələ ictimai yük, vəzifə, onun cəmiyyətdəki davranışlarıdır. Ona görə də qeyd etdiyimiz məsələ cəmiyyətin cəzasıdır".

❑ **Əli RAİS**



## Şamaxıda torpaq sürüşür - təhlükəli proses

### Son günlər sürüşmə prosesi daha da aktivləşib

**"Şamaxıda sürüşmənin dinamikasında ciddi aktivlik var". Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov deyib.**

O xatırladıb ki, Şamaxı şəhərinin 48A məhəlləsində bir neçə ay bundan əvvəl sürüşmə, oturma hadisələri baş vermişdi: "Hazırda da həmin sürüşmənin dinamikasında ciddi artım qeydə alınıb. Son günlərdə qədim sürüşmə sahəsi olan Bakı-Şamaxı avtomobil yolunun 106-111-ci kilometrliyində də yenə uçqun hadisələri baş verib. Hazırda yolu təmizləyiblər, nəqliyyat vasitələri işləyir".

**Rəisin sözlərinə görə, Bakı-Ağsu magistral avtomobil yolunun 132-156-cı kilometrliyi də sürüşmə ərazisidir:** "Son günlər sahədə sürüşmə prosesi aktivləşib, nəticədə uçqun və çöküntü hadisələri qeydə alınıb. Həmin ərazidə bir neçə yerdə yeni lokal sürüşmə sahələri əmələ gəlib".

**Ə.Qaralov bildirib ki, Ağsu aşırımında yerləşən Salyan sürüşmə sahəsində də aktivlik başlayıb:** "Şamaxı rayonu Qaravəlli kəndində sürüşmə sahəsi mövcuddur, orada da müəyyən aktivlik qeydə alınıb. Şamaxının Muğanlı sürüşmə sahəsi qədim sürüşmə sahəsidir, orada atmosfer yağıntıları intensiv olduqda sürüşmə prosesləri aktivləşir. Ötən il ərazidən 60-dan çox evin sakini köçürülüb, həmin ərazidə də yenə aktivlik qeyd olunub".

Mütəxəssisin sözlərinə görə, Çuxuryurd avtomobil yolunda, Mədrəsə kəndi ərazisində də aktivlik müşahidə edilib.

**Ə.Qaralov qeyd edib ki, hazırda Şamaxıda qəzalı vəziyyətdə olan evlər var:** "Kütləvi şəkildə hamının köçürülməsi mümkün deyil. Həmin evlərin çoxu sürüşmə prosesindən deyil, köhnə konstruksiya ilə tikilməsi səbəbindən qəzalı vəziyyətə düşüb, çünki sular birbaşa bünövrəyə axır" ("Report").



## Saxta kredit kartı hazırlanmasına görə cərimələr artırıldı

**Azərbaycanda saxta kredit kartı və ya ödəniş sənədlərini hazırlamaya görə cərimələr artırılıb. "Trend"in məlumatına görə, bu, Cinayət Məcəlləsinə dəyişikliklərdə öz əksini tapıb. Bu dəyişikliklərə əsasən, qiymətli kağız sayılmayan saxta kredit və ya hesab kartlarını və ya başqa ödəniş sənədlərini satış məqsədi ilə hazırlama, habelə əldə etmə və ya satmaya görə 2000 manatdan 4000 manatadək (hazırda 500 manatdan 1000 manatadək) miqdarda cərimə olunmaqla iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur.**

Saxta aksiz markalarını hazırlama, əldə etmə, saxlama, satma, habelə aksiz markası ilə markalanmalı olan məhsulları (malları) saxta aksiz markaları ilə markalama, fiziki şəxslər tərəfindən pərakəndə satış obyektindən istehlak məqsədi ilə əldə etmə istisna olmaqla, saxta aksiz markaları ilə markalanmış məhsulları (malları) əldə etmə, saxlama və ya satmaya görə olan cərimələrin məbləği isə 2000 manatdan 3000 manatadək (hazırda 1000 manatdan 2000 manatadək) miqdarda müəyyənləşəcək.

Cinayət Məcəlləsinə təklif edilən dəyişikliklər layihəsi Milli Məclisin mayın 31-də keçirilən plenar iclasında təsdiq edilib.

YENİ MÜSAVAT

Son səhifə

N 121 (6735) 7 iyun 2017



# Birələri bələdiyyə binasına buraxdı

Men ştatının Oqasta şəhər sakini içi birə dolu bankanı bələdiyyə binasına atdı. Bu barədə lenta.ru saytı xəbər verib. Ötən cümə günü kişi yerli şəhər hakimiyyətinə müraciət edərək, evində birə olduğunu deyib. O, bununla bağlı yardım istəsə də, rədd cavabı alıb. O zaman kişi bu həşəratları bir bankaya dolduraraq, onu bələdiyyə rəhbərliyinə göstərib. Bu zaman sonuncu onu evindən çıxarmaqla bağlı qərar verib. Evsiz qalan amerikan daha sonra bələdiyyə binasına gəlib və özü ilə birgə bir banka birə də gətirib. O, bankanı açıb, onun içindəkiləri stolun üstünə töküb. Nəticədə isə ofisin içində minlərlə birə gəzməyə başlayıb. Oqasta şəhəri siti-meneceri Vilyam Bridceo isə deyib ki, baş vermiş insidentdən sonra yerli şəhər bələdiyyəsi dezinfeksiya xidmətini binaya çağırmaq zorunda qalıb. Onlar binanı birələrdən dezinfeksiya edərək təmizləyiblər.

Binaya birə tökən narazı sakinin cəzalandırılması ilə bağlı qərar isə hələlik qəbul olunmayıb. Mart ayında məlum olmuşdu ki, Avstriya sakini məhkəməyə diri tarakanları gətirmək istəsə də, mühafizə xidməti buna icazə verməyib.

# Yumurta arıqladır



**İngiltərə alimləri yumurtanı "təmizə çıxartmaq" üçün xüsusi araşdırmalar aparıblar. Araşdırmada 2 qrup insan iştirak edib. Hər iki qrupun üzvləri eyni qaydada qıdalanırdı. Lakin 1-ci qrup hər gün 2 yumurta yeyib, 2-ci qrup isə yeməyib. 3 aydan sonra elmi təcrübədə iştirak edən insanların qanında xolesterinin səviyyəsini yoxlayıblar. Məlum olub ki, hər gün 2 yumurta yeyən insanların qanında xolesterinin səviyyəsi qalxmayıb və yumurta yeməyən insanların xolesterindən fərqlənmir. Bundan əlavə, yumurta yeyən qrupun üzvlərinin çəkiləri azalıb.**

Beləliklə, yumurtanın gündəlik qəbulu qanda xolesterinin səviyyəsini artırmır. Təbii ki, yumurtanı yağda qızardılmış şəkildə yox, suda bişirilmiş şəkildə yemək daha yaxşıdır. Həmçinin yumurta bərk yox, ılıq olmalıdır - bu halda yumurta orqanizm tərəfindən daha yaxşı mənimsənilir. Çiy yumurtanı isə ümumilikdə qəbul etmək tövsiyə olunmur. Çiy zülal orqanizm tərəfindən daha pis mənimsənilir və həmçinin çiy yumurta qəbul edən insanın orqanizminə çox təhlükəli mikroblar düşə bilər.

Yumurta arıqlamağa kömək edir - yumurta insanı daha uzun müddət ərzində tox saxlayır.

# Türmədən mismar dolu yeşikdə qaçmaq istədi



**Nyu-York ştatındakı Obern şəhərində ömürlük həbs cəzası almış məhkum qaçış planı barədə danışıb. Bu haqda "Associated Press" xəbər verib. Qordon Mauer adlı məhbus deyib ki, türmədəki mebel sexində o qədər də böyük olmayan taxta yeşikdə gizlənməyi planlaşdırıb. O, ümid edib ki, yeşiklərə nəzarət edən işçi onun içərisində nə olduğuna fikir vermədən onu maşına yükləyəcək və son nəticədə o da həbsdən qurtulmuş olacaq.**

Mauer qoruyucu eynək və maska tapandan sonra dostları ilə birgə qaçış planını hazırlayıb. Dediyinə görə, içi mismar dolu yeşikdə 50 dəfəyə yaxın gizlənməyə cəhd edib. Hərdən yeşik bu ağırlığa dayana bilmədiyindən qırılıb və məhbus da zədə alıb. Buna baxmayaraq, türmə işçiləri bu cəhdi fərq etməyiblər. Məhbus özü də türmə işçilərinin bu cəhdlərdən xəbər tutmamasına təəccüblənib və yaxalandıqdan sonra bunu açıq şəkildə deyib. Qaçış məhbuslardan birinin Mauerin planları barədə türmə rəhbərliyinə xəbər verməsindən sonra pozulub.

May ayında məlum oldu ki, Hondurasda türmədə bir məhbus qadın geyimi geyinərək, türmədən qaçmağa cəhd göstərib.

# Qoroskop




**QOÇ - Bu gün tələskənlik etmək, bir neçə işlə eyni vaxtda məşğul olmaq olmaz. Əgər ədalət lazım gələn məsələlərdə hiyləgərlik etsəniz, zərbə alacaqsınız. Ruhani insanlarla görüşmək sizə səmərə verəcək.**

**BUĞA - Bu gün istənilən mistikadan uzaq qaçmalısınız - falçı və cadugərə üz tutmaqdansa, Tanrı mərhəmətinə sığının. Günorta saatlarında sənədləşdirmə problemlərini sürətlə qaydasına salın. Səfərə çıxmayın.**

**ƏKİZLƏR - Bu gün yaddaşa böyük ehtiyacınız olacaq. Ötən dövrlərdə baş verən hər bir detalı yada salıb bu günün mənfəətinə daha çox nail ola bilərsiniz. Bu gün sözə etibar etmək müqavilə bağlamaqdan məqbuldur.**

**XƏRÇƏNG - Sevdiyiniz birisinə hədiyyə almaq sizə məmnunluq gətirəcək. Nahar ərəfəsində isə pul məsələlərinə diqqətli yanaşmaq lazımdır. Siyasi prosesləri diqqətlə izləsəniz də, meydana atılmayın.**

**ŞİR - Doğruluq, düzgünlük, özünütənqid bu gün başlıca vəzifənizə çevrilməlidir. Əks təqdirdə, nəzərdə tutduqlarınız gerçəklikdən uzaq düşəcək. Saat 16-18 arası perspektivli görüşləriniz mümkündür.**

**QIZ - Ulduzlar qanunlara riayət etməyi tələb edir. Kiməsə zərər yetirmək, xeyirxah planlarını pozmaq olmaz. Fəaliyyət üslubunuzdan asılı olaraq istirahətinizi təmin etməyi də unutmayın.**

**TƏRƏZİ - Qarşınızda möhtəşəm bir təqvim durur. Günün karmik mənzərəsi geniş üfüqləri fəth etməyə gücünüzün çatacağını göstərir. Bu gün yalnız böyük, qlobal işlər görmək, tarixi gedişlər etmək məsləhətdir.**

**ƏQRƏB - Gün gözlənilməz hadisələrlə, yeni tanışlıqlarla zəngindir. İnsanlarla ünsiyyətdə olmaq, baş verənləri ürəyinizə salmamaq və tez unutmaq məsləhət görülür. Əlinizə pul gəlsə, deməli, yenə gələcək.**

**OXATAN - Bəri başdan nəzərinizə çatdıraq ki, gün boyu təcrübəli insanların və müdriklərin məsləhətini eşitmək mövcud problemlərinizin həllində mühüm rol oynayacaq. Saat 12-16 arası cüzi də olsa, hər hansı mübahisəyə getməyin.**

**OĞLAQ - Ümumən uğurlu vaxtdır. Daxili tərəddüdlərinizi bir kənara atıb konkret hərəkətə keçin. Etibarlı dostlarınızla bir araya gəlməklə mövcud problemlərinizin həlli yollarını tapa bilərsiniz. Təşəbbüskar olun.**

**SUTÖKƏN - Bu gün başladığınız işləri mütləq təntənəli sonluğa çatdırmalısınız. Heç nəyə şübhə ilə yanaşmayın, axı şübhə Şeytandan gəlir. Bu gün haqq-ədalətin müdafiəsinə qalxmaq çox yaxşıdır.**

**BALIQLAR - Mülayim iqlimi nəzərə alıb daha çox təbiətdən zövq almağa çalışın. Hər hansı ciddi və riskli işlərə girişmək yolverilməzdir. İmkan daxilində çoxdan görmədiyiniz yaxınlarınıza baş çəkin.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Zooparkda diri eşşəyi iki pələngin arasına atdılar və...



**Çinin Çaçjou şəhərindəki zooparkda ziyarətçilərin gözü qarşısında canlı eşşəyi pələnglərin içinə atıblar. Bunu qırmızı yağış gödəkçələrində əraziyə yaxınlaşan bir neçə nəfər edib. Onlar hətta eşşəkdən sonra diri keçini də pələnglərin arasına atmaq istəyiblər. Amma buna zooparkın işçiləri son anda mane olublar. Pələnglər dərhal eşşəyə hücum ediblər və hadisədən yarım saat sonra heyvan ölüb. Baş vermiş insident isə səbəbsiz olmayıb. Belə ki, zooparkın sahibləri arasında anlaşılmazlıq baş verib. Onlardan biri zooparkdakı eşşək və keçinin satılmasını istəyib. Bunun üçün işçilər tutub, sonuncular da bu heyvanları zooparkdan çıxarmaq istəyəndə müəssisənin digər sahibinin əmrinə əsasən, mühafizəçilər buna izn verməyib. Bundan qəzəblənən zoopark ortağı isə heyvanları pələnglərin arasına atmağı tapşırıb və son nəticədə belə qəddar, insanlıqdan kənar mənzərələr ziyarətçilərin gözü önündə yaşanıb.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100